**AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ**

**AZƏRBAYCAN DÖVLƏT İQTİSAD UNİVERSİTETİ**

**BEYNƏLXALQ MAGİSTRATURA VƏ DOKTORANTURA MƏRKƏZİ**

# “AZƏRBAYCANIN MALİYYƏ SİSTEMİNİN TƏNZİMLƏNMƏSİNDƏ MALİYYƏ NƏZARƏTİNİN ROLU VƏ ONUN TƏKMİLLƏŞDİRİLMƏSİ İSTİQAMƏTLƏRİ”

**mövzusunda**

**MAGİSTR DİSSERTASİYASI**

**Eyvazlı Ceyhun Tərlan oğlu**

**BAKI – 2021**

**AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ**

**AZƏRBAYCAN DÖVLƏT İQTİSAD UNİVERSİTETİ**

**BEYNƏLXALQ MAGİSTRATURA VƏ DOKTORANTURA MƏRKƏZİ**

**BMDM-in direktoru**

**i.ü.f.d., dos. Əhmədov Fariz Saleh oğlu**

**__________________________ imza**

**"____" ________________ 2021-ci il**

# "AZƏRBAYCANIN MALİYYƏ SİSTEMİNİN TƏNZİMLƏNMƏSİNDƏ MALİYYƏ NƏZARƏTİNİN ROLU VƏ ONUN TƏKMİLLƏŞDİRİLMƏSİ İSTİQAMƏTLƏRİ"

**mövzusunda**

**MAGİSTR DİSSERTASİYASI**

**İxtisasın şifri və adı: 060403 – Maliyyə**
**İxtisaslaşma: Maliyyə nəzarəti və audit**
**Qrup: 634**

**Magistrant:**
**Eyvazlı Ceyhun Tərlan oğlu**

**______________________ imza**

**Elmi rəhbər:**
**i.e.n., dos. Qurbanova Tünzalə Tofiq qızı**
**_______________________ imza**

**Proqram rəhbəri:**
**i.ü.f.d. Vəliyev Cəbrayıl Xəlil oğlu**

**_________________________ imza**

**Kafedra müdiri:**
**i.e.d., prof. Kəlbiyev Yaşar Atakişi oğlu**

**______________________imza**

**BAKI – 2021**

**Elm andı**

Mən, Eyvazlı Ceyhun Tərlan oğlu and içirəm ki, "Azərbaycanın maliyyə sisteminin tənzimlənməsində maliyyə nəzarətinin rolu və onun təkmilləşdirilməsi istiqamətləri" mövzusunda magistr dissertasiyasını elmi əxlaq normalarına və istinad qaydalarına tam riayət etməklə və istifadə etdiyim bütün mənbələri ədəbiyyat siyahısında əks etdirməklə yazmışam.

# AZƏRBAYCANIN MALİYYƏ SİSTEMİNİN TƏNZİMLƏNMƏSİNDƏ MALİYYƏ NƏZARƏTİNİN ROLU VƏ ONUN TƏKMİLLƏŞDİRİLMƏSİ İSTİQAMƏTLƏRİ

## XÜLASƏ

**Tədqiqatın aktuallığı: Maliyyə sistemi iqtisadiyyatın tərkib hissəsi olub və eyni zamanda da dövlət siyasətinin həyata keçirilməsində mühüm yer tutur. Hazırki şəraitdə Azərbaycan Respublikasının maliyyə sistemini öyrənmək lazım gəldikdə onun fəaliyyət xüsusiyyətlərini, maliyyə sisteminin həlqələrini dərindən araşdırmaq lazımdır. Maliyyə sistemi - həm bazar münasibətlərinin strukturunda, həm də dövlət tənzimlənməsində əhəmiyyətli rola malikdir.**

**Tədqiqatın məqsədi: Dissertasiya işinin məqsədi Azərbaycanda maliyyə sisteminin tənzimlənməsi və bu prosesdə maliyyə nəzarətinin rolu, məqsəd və vəzifələrinin öyrənilməsi, bu sahə ilə bağlı müxtəlif nəzəri yanaşmaların sistemləşdirilməsi, maliyyə nəzarəti sistemində mövcud problemlərin araşdırılması və onun təkmilləşdirilməsi yollarını müəyyənləşdirməkdir.**

**İstifadə olunmuş tədqiqat metodları: Tədqiqat zamanı SWOT təhlili, sistemli yanaşma, empirik metod, müqayisə metodu, analiz və sintez, qruplaşdırma metodlarından istifadə olunub.**

**Tədqiqatın informasiya bazası: Maliyyə sisteminin tənzimlənməsində maliyyə nəzarətinin rolu mövzusu müxtəlif yerli və xarici yazarların elmi əsərlərində, məqalələrində öz əksini tapmışdır.**

**Tədqiqatın məhdudiyyətləri: "Covid 19" epidemiyası ilə əlaqədar olaraq, pandemiya şəraitində kitabxanalar işləmədiyi üçün mövzu ilə əlaqədar kifayət qədər ədəbiyyatın əldə oluna bilməməsidir.**

**Tədqiqatın elmi yeniliyi və praktiki nəticələri: Tədqiqatın elmi-nəzəri və praktiki nəticələri ölkədə maliyyə sisteminin tənzimlənməsində və maliyyə nəzarəti sisteminin təkmilləşdirilməsi və yenidən qurulması prosesində istifadə oluna bilər.**

**Nəticələrin istifadə oluna biləcəyi sahələr: Dissertasiya işinin nəzəri hissəsindən ali məktəblərdə tədris prosesində, "Maliyyə" və "Maliyyə nəzarəti və auditi" fənninin tədrisində istifadə edilə bilər.**

***Açar sözlər: Maliyyə nəzarəti, Hesablama Palatası, Maliyyə sistemi, Büdcə, Vergi, Audit***

**THE ROLE OF FINANCIAL CONTROL IN THE REGULATION OF THE FINANCIAL SYSTEM OF AZERBAIJAN AND ITS DIRECTIONS FOR IMPROVEMENT**


## SUMMARY

**The actuality of the subject: The financial system has been an integral part of the economy and still plays an important role in the implementation of public policy. Financial system has an important role both in the structure of market relations and in government regulation.**

**Purpose and tasks of the research: Purpose of the dissertation is studying the regulation of the financial system in Azerbaijan and the role, goals and objectives of financial control in process, systematize various theoretical approaches to this field, develop and manage the financial control system.**

**Used research methods: SWOT analysis, systematic approach, command, comparison, analysis and synthesis, structuring methods were used during research.**

**The information base of the research: The role of financial control in the regulation of the financial system is reflected in the scientific works and articles of various local and foreign ministers.**

**Restrictions of research: Due to the Covid 19 epidemic, there was a lack of literature on the subject due to the lack of libraries during the pandemic.**

**The novelty and practical results of investigation: The scientific-theoretical and practical results of the research can be used in the regulation of the financial system in the country and in the process of improving and rebuilding the financial control system.**

**Scientific-practical significance of results: The theoretical part of the dissertation can be used in the teaching process in universities, in the teaching of "Finance" and "Financial Control and Auditing".**



***Keywords: Financial Control, Chamber of Accounts, Financial System, Budget, Taxes, Audit***

# İXTİSARLAR VƏ İŞARƏLƏR

**HP** Hesablama Palatası

**MB** Mərkəzi Bank

**ÜDM** Ümumi Daxili Məhsul

**MM** Milli Məclis

**MDB** Müstəqil Dövlətlər Birliyi

**ABŞ** Amerika Birləşmiş Ştatları

**İEÖ** İnkişaf Etmiş Ölkələr

**BVF** Beynəlxalq Valyuta Fondu

**OPEC** The Organization of the Petroleum Exporting Countries

**DSK** Dövlət Statistika Komitəsi

## MÜNDƏRİCAT


**GİRİŞ........................................................................................................ 8**

**I FƏSİL. MALİYYƏ SİSTEMİNİN TƏNZİMLƏNMƏSİNİN NƏZƏRİ METODOLOJİ ƏSASLARI................................................................. 12**

1.1. Maliyyə sisteminin mahiyyəti və onun tənzimlənməsinin nəzəri...... 12

1.2. Maliyyə sisteminin tənzimlənməsində maliyyə nəzarətinin rolu və bu sahədə beynəlxalq təcrübə.................................................................. 22

**II FƏSİL. AZƏRBAYCANIN MALİYYƏ SİSTEMİNİN TƏNZİMLƏNMƏSİNDƏ MALİYYƏ NƏZARƏTİNİN ROLU VƏ QİYMƏTLƏNDİRİLMƏSİ................................................................... 33**

2.1. Respublikamızda maliyyə sisteminin tənzimlənməsində dövlət maliyyə nəzarətinin rolunun təhlili.................................................................. 33

2.2. Maliyyə sisteminin tənzimlənməsində nəzarət orqanlarının rolunun qiymətləndirilməsi........................................................................... 44

**III FƏSİL. AZƏRBAYCAN RESPUBLİKASINDA MALİYYƏ SİSTEMİNİN TƏNZİMLƏNMƏSİNDƏ MALİYYƏ NƏZARƏTİNİN ROLUNUN TƏKMİLLƏŞDİRİLMƏSİ İSTİQAMƏTLƏRİ........................................... 60**

3.1. Maliyyə sisteminin tənzimlənməsində maliyyə nəzarətinin rolunun artırılması ilə bağlı beynəlxalq təcrübənin Azərbaycanda tətbiqi imkanları.................................................................................... 60

3.2. Respublikamızda maliyyə sisteminin tənzimlənməsində nəzarət orqanlarının rolunun təkmilləşdirilməsi................................................ 68

**NƏTİCƏ və TƏKLİFLƏR.................................................................... 75**

**İSTİFADƏ OLUNMUŞ ƏDƏBİYYAT SİYAHISI........................................ 79**

**ƏLAVƏLƏR........................................................................................82**

Sxemlərin siyahısı…………………..…………………………….…………82

Diaqramların siyahısı..................................................................................82

Cədvəllərin siyahısı....................................................................................82

# GİRİŞ

**Mövzunun aktuallığı.** Maliyyə sistemi iqtisadiyyatın önəmli parçası olub və eyni zamanda da dövlət siyasətinin həyata keçirilməsində vacib yer tutur. İndiki dövrdə Azərbaycan Respublikasının maliyyə sistemini öyrənmək lazım olduqda onun fəaliyyət xüsusiyyətlərini, maliyyə sisteminin həlqələrini daha dərindən analiz etmək lazımdır. Ölkə iqtisadiyyatının davamlı inkişafı üçün qeyd olunan bu şərtlər vacibdir. Maliyyə sistemi - bazar münasibətlərinin strukturunda, həmçinin dövlət tənzimlənməsində önəmli rola malikdir.

Maliyyə sistemi çox qədim tarixə əsaslanır. Maliyyənin yaranması ilə maliyyə münasibətlərinin fonunda maliyə sistemi də təşəkkül tapmışdır.İnkişaf etmiş toplumlarda maliyyə,kredit,vergi,büdcə və bu tip kateqoriyalardan istifadə olunması əhəmiyyətli rol oynayır. Hər bir dövlətin iqtisadi-sosial inkişafına təsir etmək üçün maliyyə sistemi zəruri alətlərdən biridir.Maliyyə sistemi və onun həlqələrinin köməyi ilə dövlət iqtisadi inkişafa, sosial siyasətə müsbət təsir göstərir və dövlətin məqsədyönlü,dayanıqlı, stabil və effektiv fəaliyyət göstərməsi üçün maliyyə vəsaitlərini istfadə edir. Maliyyə sisteminin tənzimlənməsində maliyyə nəzarətinin rolunun araşdırılması, öyrənilməsi və cari vəziyyətin təhlili və qiymətləndirilməsi ən önəmli şərtlərdən biridir.Bu cəhətdən təqdim edilən dissertasiya çox aktual bir mövzuya həsr olunmuşdur.

İqtisadi proseslər, iqtisadi sferada baş verən hadisələr və ümumilikdə iqtisadiyyat lazımı səviyyədə özü-özünü tənzimləyi bacarmadığı üçün həmin prosesə bu və ya digər dərəcədə müdaxilə olunması gərək duyulur. Çünki hər zaman iqtisadi proseslərə, hadisələrə kənar müdaxilələr, ciddi təsirlər olur. Bununla bağlı olaraq ölkə iqtisadiyyatının müəyyən edilmiş hərəkət üzrə inkişafını təmin etmək, iqtisadiyyatda inkişaf tendensiyasını artırmaq, baş verə biləcək mənfi halların qarşısını almaq, problemləri önləmək, aradan qaldırmaq üçün ölkənin inkişaf etmiş nəzarət sisteminin olması tələb olunur. Məhz bu səbəbdən maliyyə nəzarəti iqtisadi nəzarət sisteminin bir parçası olmaqla bazar iqtisadiyyatı şəraitində aktual və önəmli nəzarət növü kimi ön plana çəkilir.

Maliyyə nəzarəti –dövlət, müəssisə və təşkilatların maliyyə fəaliyyəti üzərində qanunverici və icraedici hakimiyyət orqanlarının nəzarətidir. Onun missiyası dövlətin iqtisadi siyasətinin uğurla yerinə yetirilməsini təmin etmək, xalq təsərrüfatının bütün sahələrində maliyyə ehtiyatlarının yaranması və onlardan səmərəli istifadə prosesini təmin etməkdir. Əslində, bütün bunlar maliyyənin ümumi vəzifələrinə daxildir. Bazar iqtisadiyyatı dövründə maliyyənin rolu son dərəcə çoxaldığından maliyyə nəzarətinin önəmliliyi də nəzərə çarpacaq dərəcədə yüksəlir.

Daima inkişaf edən bazar münasibətləri şəraitində maliyyə nəzarəti sistemində də müasir tələblərə cavab verən yenilənmə tələb edilir. Buna görə maliyyə nəzarətini gerçəkləşdirən fərqli orqanların fəaliyyətlərinin qarşılılıqlı əlaqələndirilməsi, bu sahədə fərqli ölkələrdə aparılan müxtəlif maliyyə nəzarəti metodlarının qavranılması və onların sintezinin reallaşdırılması aktual məsələlərdən biri olmalıdır.

**Problemin qoyuluşu və öyrənilmə səviyyəsi.** Maliyyə sisteminin tənzimlənməsində maliyyə nəzarətinin rolu mövzusu bir çox yerli və xarici yazarların elmi əsərlərində, məqalələrində öz əksini tapmışdır. Bunlara Y.A.Kəlbiyev, B.A.Xankişiyev, D.A.Bağırov, M.X.Həsənli, V.T.Novruzov, C.B.Namazova, Ş.Ş.Bədəlov, R.B.Məhərrəmov, F.Ə.Qurbanov, V.Z.Zeynalov, Родионова В.М, А. Благодатин, Л. Лозовский, Б.Райзберг, Е.Ш.Грачева, Г.П.Толстопятенко, Е.А.Рыжково, Devid Aleksander,Anne Britton-u misal göstərmək olar.

**Tədqiqatın əsas məqsədi və vəzifələri**. Dissertasiya işinin məqsədi Azərbaycanda maliyyə sisteminin tənzimlənməsi və bu prosesdə maliyyə nəzarətinin rolu, məqsəd və vəzifələrinin öyrənilməsi, bu sahə ilə bağlı müxtəlif nəzəri yanaşmaların sistemləşdirilməsi, maliyyə nəzarəti sistemində mövcud problemlərin araşdırılması və onun təkmilləşdirilməsi yollarını müəyyənləşdirməkdir.

Dissertasiya işinin məqsədinə uyğun olaraq tədqiqatda aşağıdakı vəzifələrin həlli nəzərdə tututlmuşdur:

- müasir iqtisadi dövrdə maliyyə sisteminin tənzimlənməsində maliyyə nəzarətinin formalaşması prinsipləri, şərtləri və rolunun nəzəri-metodoloji məsələlərinin, o cümlədən beynəlxalq təcrübənin elmi araşdırılması;

- müasir şəraitdə dövlət maliyyə nəzarəti sisteminin fəaliyyətinin qiymətləndirilməsini həyata keçirmək və son dövrlərdə baş verən meyllərin analitik təhlilini aparmaq;

- Azərbaycan Respublikasında maliyyə sisteminin tənzimlənməsində maliyyə nəzarətinin rolunun təkmilləşdirilməsi və effektivliyinin artırılması istiqamətində elmi təkliflər və tövsiyyələr hazırlamaq.

**Tədqiqat işinin predmeti və obyekti**. Tədqiqat işinin **predmetini** Azərbaycan Respublikasında maliyyə sisteminin tənzimlənməsi və prosesdə maliyyə nəzarətinin rolu və təkmilləşdirilməsi ilə bağlı nəzəri-metodoloji məsələlər təşkil edir. Tədqiqat işinin **obyekti kimi** Azərbaydanda maliyyə sisteminin tənzimlənməsində maliyyə nəzarəti seçilmişdir.

**Tədqiqat metodları.** Tədqiqat zamanı SWOT təhlili, sistemli yanaşma, empirik metod, müqayisə metodu, analiz və sintez, qruplaşdırma metodlarından istifadə olunub.

SWOT təhlili müasir dövrdə Azərbaycanda maliyyə sisteminin vəziyyəti, güclü və zəif yanları, imkan və təhlükələr müəyyən edilmişdir.

Sistemli yanaşma metodunda maliyyə sistemini ümumilikdə təhlil edilib.

Müqayisəli metoda görə analiz etdiyim maliyyə sisteminin məlumatları təhlil edilmişdir.

İstənilən hadisə və proseslərin təhlili zamanı onun kəmiyyət və keyfiyyət tərəflərinin araşdırılması əsas məqsəd sayılır.Bunun əsas səbəbi ondan ibarətdir ki,tətqiqi aparılan,araşdırılan mövzunun mümkün nəticələrinin əldə olunmasına nail olmaqdır.Bu baxımdan biz keyfıyyət metodu əsasında təhlilin necə aparılmasına nəzər yetirsək görərik ki, keyfıyyət metodunun aparılması üçün bir sıra metodlardan yararlanmaq mümkündür.

Əlbəttə ki, tətqiqatı aparılan hər bir mövzunun ilk öncə hissə-hissə araşdırılması daha məqsədə uyğundur. Bu səbəbdən analiz metodundan istifadə

olunmuşdur.Daha sonra bu araşdırma nəticəsində əldə olunan məlumatları sintez metodu vasitəsilə qarşılıqlı əlaqələrin olub-olmaması yoxlanılıb.

**Tədqiqatın informasiya bazası.** Azərbaycanın və digər ölkələrin maliyyə sistemi və onun tənzimlənməsində maliyyə nəzarətinin rolu haqqında elmi əsərləri, Azərbaycan Respublikasının qanunları, normativ-hüquqi aktları və s. təşkil edir.

**Tədqiqatın elmi yeniliyi**. Maliyyə sisteminin tənzimlənməsində maliyyə nəzarətinin rolu, onun səmərəliliyi yüksək səviyyədə dövlətin qanunvericilik bazasının zamanın tələbinə uyğun təkmilləşdirilməsindən bilavasitə asılıdır. Maliyyə nəzarətini tənzimləyən normativ-hüquqi baza bu nəzarəti demokratik dövlətə xas olan keyfiyyətcə yeni səviyyəyə keçirməyi bacarmalıdır. Bu baxımdan tədqiat işinin elmi yeniliyi aşağıdakılardır:

- ✓ Maliyyə sisteminin tənzimlənməsində maliyyə nəzarətinin rolu araşdırılmış və bu sahədə beynəlxalq təcrübə öyrənilmişdir;
- ✓ Respublikamızda maliyyə sisteminin tənzimlənməsində dövlət maliyyə nəzarətinin rolunun təhlil edilərək, bu sahədə nəzarət orqanlarının rolu qiymətləndirilmişdir;
- ✓ Maliyyə sisteminin tənzimlənməsində maliyyə nəzarətinin rolunun artırılması ilə bağlı beynəlxalq təcrübənin Azərbaycanda tətbiqi imkanları öyrənilərək, onun təkmilləşdieilməsi ilə bağlı təkliflər verilmişdir.

**Tədqiqatın praktiki əhəmiyyəti və tətbiq sahələri**. Tədqiqatın elmi-nəzəri və praktiki nəticələri respublikada maliyyə sisteminin tənzimlənməsində və maliyyə nəzarəti sisteminin təkmilləşdirilməsi və yenidən qurulması prosesində istifadə oluna bilər.

Dissertasiya işinin nəzəri hissəsindən ali məktəblərdə tədris prosesində, “Maliyyə” və “Maliyyə nəzarəti və auditi” fənninin tədrisində istifadə edilə bilər. Tədqiqat işində əldə olunmuş nəticələr maliyyə nəzarəti orqanlarının fəaliyyətində tətbiq edilə bilər.

# I FƏSİL. MALİYYƏ SİSTEMİNİN TƏNZİMLƏNMƏSİNİN NƏZƏRİ METODOLOJİ ƏSASLARI

## 1.1. Maliyyə sisteminin mahiyyəti və onun tənzimlənməsinin nəzəri aspektləri

Maliyyə sistemi - qarşılıqlı əlaqə və fəaliyyət göstərən maliyyə münasibətlərinin ayrı-ayrı həlqələrinin toplusudur. Maliyyə sistemi vasitəsilə pul vəsaitləri fondlarının formalaşması, bölgüsü və istifadəsi həyata keçirilir. Maliyyə sisteminə ölkənin maliyyə fəaliyyətinin və pul tədavülünün tənzimlənməsinə xidmət edən maliyyə idarələri daxildir. (Xankişiyev.B,2002)

Maliyyə bölgü münasibətlərinin daşıyıcısı olduğuna görə, məhz bu bölgü müxtəlif təsərrüfat subyektləri arasında baş tutur. Pul vəsaiti fondlarının istifadəsi və yaradılması qaydasından asılı olaraq maliyyə sistemi iki yerə bölünür:

1) Müəssisə və təşkilatların (təsərrüfat subyektlərinin) maliyyəsi (qeyri-mərkəzləşdirilmiş maliyyə).
2) Ümumdövlət maliyyəsi (mərkəzləşdirilmiş maliyyə);

Maliyyə sistemi geniş anlamda özündə habelə kredit-bank sistemini də (ölkənin banklarını və digər kredit idarələrinin toplusu) ehtiva edir. Bu bölmənin hər biri təşkilati struktura malik olmaqla yanaşı bir neçə həlqədən ibarətdir.

Birinci bölmə müəssisə və təşkilatların maliyyəsini, qeyri-mərkəzləşdirilmiş maliyyəni əhatə edir və mikro səviyyədə sosial münasibətləri və iqtisadiyyatı stimullaşdırmaq və tənzimləmək üçün istifadə olunur.

İkinci bölmənin - dövlət maliyyəsinin həlqələri mərkəzləşdirilmiş maliyyəyə aiddir və makro səviyyədə iqtisadiyyatı və maliyyə-bölgü münasibətlərini tənzimləmək üçün istifadə olunur.

Kredit-bank sferası ölkənin banklarından və digər kredit idarələrdən ibarətdir. Ölkənin maliyyə sisteminə maliyyə fəaliyyətini həyata keçirən və tənzimləyən dövlət maliyyə institutları da (idarələr və təşkilatlar) aid edilir.

Ölkəmizdə iqtisadi islahatlar nəticəsində formalaşmış maliyyə sisteminin strukturu və dövlət maliyyə orqanları sistemi sxem 1-də əks olunmuşdur.

**Sxem 1: Azərbaycan Respublikasının maliyyə sistemi**

| **AZƏRBAYCAN RESPUBLİKASININ MALİYYƏ SİSTEMİ** | | | |
|---|---|---|---|
| Dövlət maliyyəsi | Müəssisə və təşkilatların maliyyəsi | Kredit – bank sistemi | Dövlət maliyyə orqanları sistemi |
| o Dövlət büdcəsi<br>o Büdcədənkənar fondlar<br>o Dövlət krediti<br>o Dövlət sığorta fondları<br><br>Bələdiyyə maliyyəsi | o Kommersiya müəssisələrinin (təşkilatlarının) maliyyəsi<br>o Dövlət və bələdiyyə müəssisələrinin maliyyəsi<br>o Qeyri-kommersiya müəssisə və təşkilatların maliyyəsi<br>o İctimai təşkilatların və birliklərin maliyyəsi | o AR-nın Milli Bankı<br>o Kommersiya bankları<br>o Bank olmayan kredit təşkilatları | o AR-nın Maliyyə Nazirliyi<br>o Respublika xəzinədarlığı<br>o AR-nın subyektlərinin maliyyə orqanları<br>o AR-nın Iqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidməti |

**Mənbə**: Müəllif tərəfindən hazırlanmışdır.

Maliyyə sisteminin ayrı-ayrı sferaları (bölmələri) və həlqələri bir-birindən hər bir həlqənin fəaliyyət xarakteristikaları, pul vəsaitləri fondlarının bölüşdürülməsi və istifadəsi metodları ilə və nəticə etibarı ilə, onların maliyyə sistemindəki rolu ilə seçilir.

"Maliyyə sistemi – pul vəsaitlərinin yaranması və istifadəsi prosesində yaranan maliyyə münasibətlərinin toplusudur". Bu izahda bir yandan da sistem anlayışına, yəni ki, "qarşılıqlı əlaqədə olan elementlərin yaratdığı bütövlük-tamlıq" fikrinə diqqətlə yanaşılmır. Burada göstərilmir ki, maliyyə sistemi bir – biri ilə əlaqəli qarşılıqlı münasibətlərin məcmusudur.

Bodi və Mertonun dərsliyində maliyyə sisteminin izahı başqa postsovet izahlarının qüsurlu olmasını sübut edir. Belə ki, Bodi və Mertonun fikrincə maliyyə sistemi – maliyyə bağlaşmalarının həyata keçirilməsi, aktivlər və risklərin mübadiləsi üçün istifadə edilən bazarların və başqa alətlərin toplusudur. Maliyyənin bir iqtisadi termin kimi aydınlaşdırılması zamanı qeyd olunan cəhətləri nəzərə alaraq, maliyyə sistemini aşağıdakı kimi xarakterizə etmək mümkündür:

Maliyyə sistemi - maliyyə bazarlarının, dövlət maliyyəsinin fəaliyyətinə imkan yaradan qarşılıqlı əlaqəli elementlərin ümumiləşmiş məcmusudur.

Maliyyə sisteminə verilən bu izah bu sistemin quruluşunun müəyyənləşdirilməsindəki çatışmazlıqları da aradan qaldırır. Odur ki, bir çox hallarda – maliyyə sistemi dövlət və təsərrüfat subyektlərinin maliyyəsinin toplusu, yaxud banklar, təsərrüfat subyektlərinin maliyyəsi, sığorta, dövlət maliyyəsi və fiziki şəxslərin maliyyəsinin toplusu kimi xarakterizə edilir. Bir tərəfdən yaddan çıxarmayaq ki, maliyyə sistemi yalnız müxtəlif maliyyə fondlarının sxematik birləşməsi deyil. Nəzərə almaq lazımdır ki, maliyyə sistemi öz xidmətini firma və vətəndaşla dövlətə təklif edən müəssisə və bazarın bütöv sırasından ibarətdir.

Bir sözlə maliyyə sisteminin tərkibində mühüm elementlərin - maliyyə vasitəçilərinin, maliyyə bazarlarının, maliyyə mexanizmlərinin, maliyyə institutlarının və s. ehtiva olunduğuna diqqət yetirilməyib. Bundan savayı dünya maliyyə sisteminin başqa bir gerçəkliyi də maliyyə vəsaitləri axınlarının artıq heç bir milli sərhəd tanımaması faktıdır və bu məsələ diqqətdən yayınıb. Maliyyə bölgü münasibətlərinin daşıyıcısı olduğu üçün, məhz bu bölgü müxtəlif təsərrüfat subyektləri arasında gerçəkləşir.

“Maliyyə” termini latın sözü olan “finis”dən yaranmışdır. “Son, axırıncı, finiş” mənalarını verən bu sözdən, sonralar “finansia” sözü əmələ gəlmişdir (Брайчева. Т.В,2001)

Azərbaycanın iqtisadçı professorları T.S.Vəliyevin, Ə.R.Babayevin və M.X. Meybullayevin ümumi redaktəsi ilə hazırlanmış “İqtisadi nəzəriyyə” dərsliyində maliyyə sisteminə maliyyə münasibətlərini və onları tənzimləyən institutların

toplusunu daxil edirlər. Onlar düşünür ki, maliyyə sistemi aşağıdakı sferaları özündə birləşdirir:

- dövlət maliyyəsi;
- müəssisə, idarə və təşkilatların maliyyəsi;
- kreditləşmə sisteminin maliyyəsi.
- sığorta maliyyəsi;

Maliyyə sisteminin "dövlətin və təsərrüfatçılıq edənlərin pul fondlarının yaranması, bölgüsü və istifadəsi ilə əlaqədar tətbiq olunan forma və metodların sistemi" kimi səciyyələndirən ölkə iqtisadçıları bu sistemə müxtəlif dairələrin büdcələrini, dövlətin maliyyə ehtiyatlarını, sosial, şəxsi, əmlak sığorta fondlarını, idarə, müəssisə və təşkilatların, digər kommersiya və qeyri-kommersiya qurumlarının pul fondlarını və s. aid edirlər.

Bunu da qeyd etmək lazımdır ki, cəmiyyətin maliyyə sisteminin ən vacib sferasını dövlət maliyyəsi təşkil edir. Çünki, dövlət maliyyəsi ilk növbədə dövləti pul vəsaitləri ilə təmin edən bir sistemdir. Rus alimi V.V.Zabarodina özünün "Финансы" kitabında dövlətin maliyyə sisteminə büdcədənkənar fondlar və dövlət kreditindən başqa dövlət müəssisələrinin də maliyyəsini daxil etmişdir. Ancaq həmin gəlirləri dövlət gəlirləri kimi yox, millətin, cəmiyyətin gəlirləri kimi qiymətləndirən müəllif yerli maliyyəni və ayrı-ayrı subyektlərin maliyyəsini dövlətin maliyyə sisteminə aid edir. Bununla yanaşı, aydın olur ki, həmin maliyyə sistemlərinin dövlət büdcəsi və gəlirləri ilə əlaqəli olmasına baxmayaraq, bu sistemlər nə büdcə, nə də dövlət gəlirləri deyildir və onların hər biri öz sosial-iqtisadi təyinatına malikdir. Digər yandan, bizim düşüncəmiz o yöndədir ki, istənilən səbəbdən "Dövlət maliyyəsi" terminini "dövlət gəlirləri" terminінə qarşı qoymaq düzgün olmaz. Ona görə ki, dövlət maliyyəsi əslində dövlət sərəncamında maliyyə resurslarının mərkəzləşməsi prosesi ilə əlaqəlidir ki, bu da öz əksini dövlət gəlirlərinin formalaşmasında tapır. Bunu təsərrüfat subyektlərinin və yerli büdcənin gəlirlərini də dövlət gəlirlərinə daxil edən iqtisadçılar vəziyyətdən çıxmaq məqsədilə dövlət gəlirlərini mərkəzləşmiş və qeyri-mərkəzləşmiş istiqamətdə təsnifləndirirlər. (Брайчева. T.B,2001,s.122)

Yerli iqtisadçılardan bəzilərinin də fikrincə "Ümumdövlət maliyyə sistemi ancaq dövlət büdcəsindən deyil, həm də büdcədənkənar fondlar, əmlak, dövlət, şəxsi və digər sığortalaşmadan və dövlət kreditlərindən ibarətdir."

Yuxarıda qeyd edilənləri nəzərə alaraq, maliyyə sistemini məcmu ictimai məhsulun bölüşdürülməsi və yenidən bölüşdürülməsi üzrə təkrar istehsal prosesinin bütün subyektləri arasında pul münasibətlərinin təşkilati forması kimi qiymətləndirəcəyik. Məcmu ictimai məhsulun dəyərinin bölüşdürülməsi prosesində iqtisadi münasibətlərin subyektlərində pul gəlirlərinin və yığımlarının müxtəlif fondları yığılır. İqtisadi münasibətlər subyektlərinin gəlirləri ilkin və son gəlirlərə ayrılır: ilkin gəlir və yığımların mənbəyi ümumi daxili məhsul (ÜDM) hesab olunur ki, bu da təsərrüfat subyektlərinin mənfəət və amortizasiya ayırmaları; muzdlu işçilərin əmək haqqı; dövlətin yerli idarəetmə orqanlarının məhsullarının (iş və xidmətlərin) daxil edilən vergi və digər ödəmələr formasında təzahür edir. İlkin gəlirlər vergi mexanizmi, mənfəətin bölüşdürülməsi, ödəmələr sistemi, və s. vasitəsilə gələcəkdə bölüşdürmə prosesi üçün mənbə hesab edilir. Bu cür təkrar bölüşdürmənin nəticəsi son gəlirlər sayılır ki, bunlar da iqtisadi subyektlərin xüsusi maliyyə resursları kimi təzahür edir. Son maliyyə resursları həmçinin onların məqsədli təyinatı üzrə istifadəsi üçün növbəti bölgü və yenidən bölgü prosesinin obyekti hesab edilir.

Məcmu ictimai məhsulun dəyərinin bölgüsü və təkrar bölgüsü prosesi maliyyə mexanizmini yaradır ki, bu da özündə muzdlu işçilərin, təsərrüfat subyektlərinin, dövlətin və yerli idarəetmə orqanlarının xüsusi maliyyə resurslarını formalaşdırmağa imkan verən maliyyə münasibətlərinin xüsusi təbəqələrini birləşdirir. Maliyyə mexanizmi dedikdə, maliyyə münasibətlərinin təşkili, tənzimlənməsi və planlaşdırılması sistemi, maliyyə resurslarının formalaşması və istifadəsi üsulları nəzərdə tutulur.

İqtisadi subyektlərin gəlirlərinin formalaşması metodlarından asılı olaraq maliyyə sistemini mərkəzləşdirilmiş maliyyələrə (açıq maliyyələrə) və mərkəzəşdirilməmiş maliyyələrə (təşkilatların maliyyələri və ev təsərrüfatlarının maliyyələri) bölmək olar.

Pul münasibətlərinin təşkilati forması kimi maliyyə sistemi maliyyə resurslarının formalaşmasını və istifadəsini təmin edən bir-biri ilə qarşılıqlı əlaqədə olan üç altsistemə ayrılır:

1. təsərrüfatçılıq subyektlərinin altsistemi,
2. əhalinin altsistemi,
3. dövlət və yerli idarəetmə orqanlarının altsistemi

Ayrı-ayrı hər bir sistemdə maliyyə resurslarının yaranması və istifadəsinin xüsusi forma və metodları istifadə olunur. Onlardan hər biri xüsusi funksional təyinata və müvafiq maliyyə mexanizminə malikdirlər.

Maliyyə sisteminin əsası qeyri-mərkəzləşdirilmiş maliyyələr hesab edilir, çünki məhz bu sferada dövlətin maliyyə resurslarının üstün payı əmələ gəlir. Bu resursların bir hissəsi maliyyə hüququ normalarına uyğun olaraq bütün səviyyələrdə büdcə gəlirlərinə və büdcədənkənar fondlara yenidən bölüşdürülür. Bu zaman göstərilən vəsaitlərin xeyli hissəsi gələcəkdə büdcə təşkilatlarının; subvensiya şəklində kommersiya təşkilatlarının maliyyələşdirilməsinə yönəldilir, həmçinin sosial transfertlər (yardım, pensiya, təqaüd və s.) formasında əhaliyə geri verilir. (Шохин.С.О,Боронина.Л.И,1997)

Qeyri-mərkəzləşdirilmiş maliyyələr arasında başlıca yeri kommersiya təşkilatlarının maliyyələri tutur. Burada maddi nemətlər yaradılır, xidmətlər göstərilir, əmtəələr istehsal olunur, cəmiyyətin əsas istehsal və sosial inkişaf mənbəyi sayılan mənfəət təşəkkül tapır.

İnkişaf etmiş dünya ölkələrinin qeyri-mərkəzləşdirilmiş maliyyələr sistemində və ümumilikdə maliyyə sistemində maliyyə vasitəçilərinin maliyyələri xüsusi əhəmiyyət daşıyır. Maliyyə vasitəçilərinə müvəqqəti sərbəst pul vəsaitlərinə malik şəxslərlə pul vəsaitlərinə ehtiyacı olan şəxslər arasında qarşılıqlı fəaliyyətin təşkilində ixtisaslaşan firmalar aid edilir. İnkişaf etmiş ölkələrdə maliyyə sisteminin bu həlqəsində hər şeydən əvvəl investisiya məqsədləri üçün istifadə olunan böyük maliyyə resursları təmərküzləşmişdir.

Maliyyə vasitəçilərinin tipləri müxtəlif olsa da, onlar aşağıdakı ümumi funksiyanı: maliyyə resurslarının səmərəli yerləşməsini onların son istehlakçılarına

uyğun təmin etməklə müxtəlif "maliyyə məhsullarını" əldə etmək və satmaqla həyata keçirirlər.

Ev təsərrüfatlarının maliyyələri həm vergi tədiyələri vasitəsilə mərkəzləşdirilmiş maliyyələrin formalaşmasında, həm də ölkənin tədiyə qabiliyyətli tələbinin formalaşmasında əhəmiyyətli yer tutur. Əhalinin gəlirləri nə qədər çox olarsa, onun müxtəlif növ maddi və qeyri-maddi nemətlərə tələbi bir o qədər artar və iqtisadiyyatın, sosial sferanın inkişafı üçün böyük imkanlar ortaya çıxar.

Qeyri-kommersiya təşkilatlarının maliyyələri gəlirlərin formalaşması, onların istifadə olunması qaydası, əmlaka sahibolma və s. ilə əlaqədar öz spesfik xüsusiyyətlərinə sahibdir.

Maliyyə resursları, dövlət gəlirləri, vergi anlayışları bir çox alim və iqtisadçılar tərəfindən qəbul edilsə də, onların izahında kifayət qədər mübahisəli məqamlar hələ də mövcuddur. Məsələn, akademik D.Q.Çemikin redaksiyası ilə yazılmış dərslikdə vergi sisteminə yalnız vergi növləri yox, həmçinin ayrı-ayrı rüsumlar və yığımlar da daxil edilir. Ancaq sırf nəzəri və praktiki baxımdan yanaşılma, vergi ÜDM-lə deyil, milli gəlir və onun yenidən bölüşdürülməsi ilə əlaqəlidir.

XVIII əsr klassik siyasi iqtisadın yaranması və inkişafı dövrü hesab edilir. Lakin bu məktəbin nümayəndələri maliyyəni siyasi iqtisaddan ayırmamış və onu müstəqil elm hesab etməmişlər. Klassik siyasi iqtisadın görkəmli nümayəndələrindən sayılan fransız A.Tyurqo, F. Keyns, V.Mirabo, ingilis A.Smit və D.Rikardonun müxtəlif şərh üslublarına baxmayaraq, onların maliyyə siyasəti və maliyyə münasibətləri haqqındakı fikirlərini 4 əsas qrupa ayırmaq olar:

1) dövlət aparatının saxlanmasına çəkilən xərclər aşağı olmalıdır. Çünki onun saxlanmasına çəkilən xərclər qeyri-məhsuldar sayılır;

2. ölkəni xarici işğal və asılılıqdan qoruduğu üçün, dövlət aparatı olması zəruridir;

3. dövlət aparatı, ölkənin təsərrüfat həyatına qarışmamaqla, mülkiyyət hüququ və rəqabəti məhdudlaşdırıcı gömrük tarifləri və inhisarçılıq vasitəsilə pozmamalıdır.

4. dövlət vergiqoymanın aşağıdakı əsas prinsiplərinə əməl etməlidir:

- vergini hərkəs ödəməlidir və öz gəlirlərinə uyğun ödəməlidir (bu prinsip, vaxtilə vergidən yayınan zadəgan və ruhanilər üçün nəzərdə tutulmuşdu);

- vergi tutmaları sərfəli və aşağı olmalıdır.

- vergilər ödəyicilər üçün əlverişli və müəyyən vaxtlarda tutulmalıdır; (Aleksander.D, Britton.A,2010)

Kapitalizmin Avropa ölkələrinə yayılmasından sonra, yeni istehsal münasibətlərinə uyğun olan iqtisadi məktəblər yarandı. XIX əsrin ən görkəmli maliyyəçi iqtisadçılarından fransız Polya Lerua-Basyeni və ingilis K. F. Bastblanı nümunə göstərmək olar. Həmin ərəfədə, alman alimi Karl Henrix Rau 1826-1832-ci illərdə siyasi iqtisad kursu yazmışdır. Kursun üçüncü hissəsi bütövlüklə maliyyə problemlərinə həsr edilmişdir. Onun "Maliyyə elminin əsas başlanğıcı" əsəri 1867-ci ildə rus dilində nəşr olunmuşdur.

XX əsrin əvvəllərində şərqdə ilk respublika - Azərbaycan Demokratik Cümhuriyyətinin iqtisadi siyasətində ən başlıca istiqamətlərindən biri maliyyə-vergi və valyuta siyasəti olmuşdur. Demokratik dövlətin maliyyə, vergi, bank-kredit sistemini yaratmaq üçün 82-dən çox qanun layihəsi işlənib parlamentə təqdim edilmiş və onların əksəriyyəti qısa müddətdə qəbul edilmişdir. (Zeynalov.V.Z,2010)

Bu dövrdə dövlətin maliyyə siyasətinin ən mühüm məqsədi - dövlətin pul tədavülünü qaydaya salmaq idi. Bunun üçün xəzinəyə müəyyən rüsum keçirmək şərtilə (ixrac olunan xammal dəyərinin 25%-i) xammal ixracına icazə verilməsinə dair Qanun (11 dekabr 1919) qəbul olunmuş, ölkə xaricinə gizli yolla platin, qızıl və gümüş aparılmasına aid məsuliyyət məsələsinə baxılmış, daxili bazarı tənzimləmək məqsədilə, Azərbaycandan kənara göndərilən əmtəələr üçün yeni müvəqqəti gömrük tariflərinin tətbiq edilməsi haqqında Qanun (9 fevral 1920) təsdiq edilmiş, çevik maliyyə-vergi siyasəti yürüdülmüş, xaricdən ölkəyə gömrüksüz gətirilən malların siyahısı (bu siyahıya 200-dən çox məhsulun adı daxil edilmişdir) müəyyənləşdirilmiş və digər işlər görülmüşdür.

Azərbaycanın, 70 il ərzində tərkibində olduğu sosializm sistemi üçün səciyyəvi olan ümumdövlət maliyyəsi-dövlət büdcəsi, dövlət kreditini, dövlət sosial, əmlak və şəxsi sığortaları özündə birləşdirmişdir. Xalq təsərrüfatı sahələrinin

maliyyəsinin tərkibinə isə, dövlət, kooperativ müəssisə və təşkilatlarının maliyyəsi daxil olmuşdur. Dövlət müəssisələrinin və onların yuxarı orqanlarının maliyyəsi isə dövlət maliyyəsini təşkil etmişdir.

1991-ci ildə öz müstəqilliyini elan edən Azərbaycanın bazar iqtisadiyyatına keçid şəraitində, yeni maliyyə siyasətini yürütməsi və maliyyə münasibətlərinin yenidən qurulması obyektiv zərurətə çevrilmişdir. Bu gün dövlətin maliyyə sistemi - mərkəzləşdirilmiş pul resursları fondlarının yaradılması, bölgüsü və istifadəsi üzrə yaranan iqtisadi münasibətlər sistemidir. Azərbaycan Respublikasının dövlət maliyyə siyasəti dövlət və hökumət xərclərini tənzimləyir və fiskal tədbirləri həyata keçirir. Fiskal siyasət-dövlətin, büdcə vəsaitinin yaranması və istifadəsi ilə bağlı yeritdiyi maliyyə tədbirləri sistemidir. Ölkənin yeni iqtisadi sistemə keçməsi ilə əlaqədar olaraq müəssisə, firma və digər sahibkarlıq qurumlarının yaradılması mühüm rola malikdir. Bu cür münasibətlərin qurulması isə, düzgün maliyyə siyasətinin həyata keçirilməsi ilə bağlıdır. Bazar iqtisadi münasibətlərində maliyyə siyasəti dövlətin iqtisadi siyasətinin əsas tərkib hissələrindən biridir. Onun əsas prinsipləri dövlət siyasətinin əsas prinsipləri ilə uzlaşmalıdır. Maliyyə siyasəti iqtisadi maraqların təmin edilməsində çox mühüm rol oynayır.

Ümumi halda, dövlətin maliyyə siyasəti dövlətin öz funksiyalarını yerinə yetirməsi üçün maliyyə resurslarının səfərbər edilməsi, onların bölgüsü və yenidən bölgüsü, vahid iqtisadi sistemdə istifadə edilməsi, lazımi iqtisadi səmərənin əldə edilməsi və bununla da cəmiyyətdə iqtisadi sabitlik və artıma yönəlmiş tədbirlərin məcmusudur.

Maliyyə siyasəti-dövlətin iqtisadi siyasətinin mühüm tərkib hissələrindən biri olduğu üçün, onun mühüm tərkib hissələri olan maliyyə strategiyası və maliyyə taktikasını bir-birindən fərqləndirmək lazımdır. Maliyyə strategiyası - maliyyə siyasətinin, perspektiv və daha böyük miqyaslı məsələlərinin həllini nəzərdə tutan uzunmüddətli kursdur. Onun işlənib hazırlanması prosesində maliyyənin əsas inkişaf istiqamətləri proqnozlaşdırılır, istifadə yolları və maliyyə münasibətlərinin təşkili prinsipləri müəyyən edilir. Maliyyə siyasəti sahəsində uzunmüddətli

məqsədlərin seçilməsi və məqsədli proqramların tərtib edilməsi, sosial-iqtisadi inkişafın başlıca istiqamətlərində maliyyə resurslarının cəmlənməsi üçün zəruridir.

Maliyyə taktikası - çevik maliyyə resurslarının toplanması və maliyyə əlaqələrinin təşkilinin vaxtında tənzimlənməsi yolu ilə, müəyyən (konkret) vaxtda cəmiyyət qarşısında duran məsələlərin həllinə yönəlmişdir. Maliyyənin həm strategiya, həm də taktikası qarşılıqlı surətdə əlaqəlidir. Maliyyə taktikası, cəmiyyətin sosial-iqtisadi inkişafının əsas cəhətlərini və problemlərinin aşkara çıxarılması nəticəsində, müəyyən və konkret vaxt ərzində, az məsrəf və itkilər hesabına nəzərdə tutulmuş məsələlərin həllinə şərait yaradır.

Maliyyə siyasətinin uğurla həyata keçirilməsi üçün maliyyə mexanizmindən istifadə edilir. Maliyyə mexanizmi - maliyyə funksiyalarının praktiki surətdə həyata keçirilməsinin təzahür forması olub, maliyyə sistemi subyektlərinin obyektə təsir vasitəsidir. Onu həm də, dövlətin istifadə etdiyi maliyyənin müxtəlif forma və metodlarının məcmusu kimi də qəbul etmək olar. (Bağırov.D.A,Həsənli.M.X,2011 s. 120)

Maliyyə mexanizminin əsas elementlərinə - dövlətin gəlir və xərclərinin müəyyən edilməsi, büdcə sisteminin təşkili zamanı istifadə olunan maliyyə resursları və onların yaradılmasının forma və metodları, həmçinin bu sahəyə aid qanunverici norma və normativlər daxildir. Bu mexanizmi, dövlətin maliyyə siyasətinin müxtəlif forma və metodlarının məcmusu kimi də qəbul etmək olar. Maliyyə mexanizminin elementləri çox zəngindir.

Maliyyə siyasətinin məzmunu yalnız konkret şəraitlə deyil, həm də mövcud iqtisadi münasibətlərin xarakteri və tipi ilə müəyyən edilir. Bu isə öz növbəsində dövlətin iqtisadi siyasətinin konseptual istiqamətlərini müəyyən edir.

Tarixən dövlətin maliyyə siyasəti aşağıdakı 3 tipdə formalaşmışdır: klassik, tənzimləyici, plan-direktiv.

Keçən əsrin 20-ci illərinə qədər dünyanın əksər dövlətlərində maliyyə siyasəti klassik variantda olmuşdur. Bunun əsasını A.Smit. D.Rikardo və onun ardıcılları müəyyən etmişlər. Belə maliyyə siyasəti - dövlətin iqtisadiyyata müdaxilə etməməsi və bazar mexanizmlərindən geniş istifadə edilməsinə əsaslanır. Belə bir mexanizmi dövlət xərclərinin məhdudlaşmasına, tarazlı büdcənin formalaşmasına əhəmiyyətli

dərəcədə təsir göstərmişdir. Ancaq bu sistem özünü doğrultmadı. Buna görə də 30-cu illərdə Avpopa ölkələrində tənzimlənən maliyyə sisteminə keçilməsi zərurəti meydana çıxdı.

Bu, Keynsin dövlətin iqtisadiyyata müdaxilə etməsi və onu tənzim etməsi konsepsiyasından irəli gəlmişdir. Burada - gəlir vergisi, əlavə iş yerlərinin açılması, ümumiyyətlə gəlirlər nəzəriyyəsi, gəlirlərlə xərclərin tarazlaşdırılması, kredit, büdcə kəsiri və s. kimi məsələlərə xüsusi diqqət yetirilir. Keynsin maliyyə konsepsiyasına uyğun olan maliyyə siyasəti nəinki 30-40-cı illərdə, hətta 50-60-cı illərdə qərb ölkələrində geniş istilfadə edilmişdir. Çünki bu konsepsiyaya uyğun gələn maliyyə siyasəti iqtisadi inkişafa müsbət təsir göstərmişdir.

Lakin XX əsrin 70-ci illərindən sonra Qərb ölkələrinin maliyyə siyasətində neokonservativ strateji müddəalardan geniş istifadə etməyə başladılar. Bu müddəalara əsasən, bu məsələdə dövlətin rolu tamamilə inkar edilməsə də, onun yeritdiyi iqtisadi siyasətdə iqtisadi artım və məşğulluqla yanaşı pul tədavülü və valyuta kursunun tənzimlənməsi ön plana çəkilmişdir. Bu prosesdə maliyyə mexanizmi vasitəsilə milli gəlirin təkrar bölüşdürülməsinin məhdudlaşdırılması, büdcə kəsirinin azaldılması məsələləri diqqət mərkəzinə gətirilir. Bəzi ölkələr isə, hər iki maliyyə konsepsiyasından istifadə etməyə üstünlük vermişdir.

### 1.2 Maliyyə sisteminin tənzimlənməsində maliyyə nəzarətinin rolu və bu sahədə beynəlxalq təcrübə

Maliyyə nəzarəti haqda danışıldıqda, ölkənin sosial-iqtisadi inkişafı məqsədilə istər müəssisələrin, istərsə də dövlətin və bələdiyyələrin pul fondlarının təşkili, bölüşdürülməsi və məqsədyönlü istifadə olunması üzərində nəzarət başa düşülür.

Buna başqa cür yanaşsaq, maliyyə nəzarəti – bütün iqtisadi subyektlər: dövlət, müəssisə və təşkilatların maliyyə fəaliyyəti üzərində icraedici və qanunverici hakimiyyət orqanlarının nəzarətidir.

Maliyyə nəzarəti bir yandan maliyyənin idarə olunmasının həlledici hissəsi, digər yandan maliyyə sisteminin idarə edilməsinin effektliliyinin vacib şərti kimi özünü göstərir. Maliyyə nəzarətinə iki aspektdən yanaşmaq lazımdır:

1. Maliyyə əməliyyatlarının effektivliyinin təmin edilməsi üçün maliyyə və pul axınlarının idarə edilməsinin vacib elementi kimi;

2. Xüsusi nəzarət orqanlarının bütün iqtisadi subyektlərdə maliyyə qanunvericiliyi və maliyyə intizamına riayət olunması üzrə reqlamentləşdirilmiş fəaliyyəti kimi.

Maliyyə nəzarəti maliyyənin nəzarətedici funksiyasının təzahürü, yaxud gerçəkləşdirilməsi kimi başa düşülür. Burada həmin nəzarətin məqsədləri, mahiyyəti dəqiqləşdirilir. Bunu da qeyd etmək lazımdır ki, cəmiyyətin məhsuldar qüvvələrinin və ictimai münasibətlərin inkişaf səviyyəsi ilə əlaqədar olaraq maliyyə nəzarətinin məqsəd və istiqamətləri fərqli formalarda ola bilər.

İ.A. Belobjetski bu barədə öz düşüncələrini ifadə edərkən deyir ki:

*Maliyyə nəzarəti nəzarət funksiyaları verilmiş dövlət orqanlarının və ictimai orqanların müəssisə, birlik, idarə, təşkilat, maddi istehsal və qeyri-istehsal sahələri bölmələrinin maliyyə-təsərrüfat fəaliyyətinə, həmin fəaliyyətin iqtisadi səmərəliliyinin obyektiv qiymətləndirilməsi, təsərrüfat və maliyyə əməliyyatlarının qanuniliyinin, mötəbərliliyinin və məqsədəmüvafiqliyinin, mülkiyyətin qorunub saxlanılmasının təyin edilməsi, istehsalın səmərəliliyini yüksəltməyin və dövlət büdcəsi gəlirlərinin artırılmasının təsərrüfatdaxili ehtiyatlarını üzə çıxarmaq məqsədilə həyata keçirilən nəzarət kimi anlaşılmalıdır.* (Bağırov.D.A,Həsənli.M.X,2011)

Maliyyə nəzarəti sferasına pulun istifadə edilməsi ilə həyata keçirilən bütün əməliyyatlar aiddir. Bu zaman ilkin olaraq maliyyə ehtiyatlarının formalaşdırılması və istifadəsi ilə bağlı olan birbaşa və bilavasitə qarşılıqlı əlaqələr və fəaliyyətin bütün sahələrində pul vəsaitləri fondları üzrə əlaqələr qeyd edilməlidir.

Konkret olaraq maliyyə nəzarətinin əhatəsinə aşağıdakı istiqamətlər aid edilə bilər:

- Büdcə və büdcədənkənar fondların vəsaitlərinin səmərəli və məqsədyönlü istifadəsi, banklarda və digər kredit təşkilatlarında büdcə vəsaitləri ilə əməliyyatların düzgünlüyünə nəzarət olunması;
- Müxtəlif səviyyəli büdcələrin tərtibi və icra olunmasına nəzarət olunması;

- Məcmu ictimai məhsulun dəyərinin və Milli gəlirin bölgüsü və yenidən bölgüsünə nəzarət olunması;
- Mövcud büdcə və vergi qanunvericiliyinə riayət olunmasına nəzarət olunması və sair.

Maliyyə nəzarətinin məqsədi maliyyə resurslarının iqtisadiyyatın bütün sahələri və sferalarında məqsədyönlü və effektiv istifadəsini təmin etməkdən ibarətdir. Bu məqsədə çatmaq üçün maliyyə nəzarətinin aşağıdakı vəzifələri müəyyən edilir:

- müəssisələrdə istehsaldaxili maliyyə resurslarını üzə çıxarmaq, xərclərin azaldılması, mənfəət və rentabelliyin artırılması imkanlarını müəyyən etmək;
- maliyyə münasibətlərinin bütün subyektlərinin dövlət büdcəsi və büdcədənkənar fondlar qarşısında maliyyə öhdəliklərinin bütövlükdə və vaxtında təmin ediməsi;
- mühasibat uçotu və hesabatların düzgün aparılmasının təmin edilməsi;
- mərkəzləşdirilmiş və qeyri-mərkəzləşdirilmiş pul fondlarının vəsaitlərinin effektiv və məqsədyönlü istifadəsinə, eləcə də müəssisə, idarə və təşkilatlarda material dəyərlilərinin səmərəli istifadəsinə kömək etmək;
- maliyyə intizamının pozulması hallarının aradan qaldırılması, maliyyə intizamının artırılması istiqamətində tədbirlərin həyata keçirilməsi və s.

İqtisadi yöndən inkişaf etmiş ölkələrdə maliyyə nəzarəti sistemi eyni tipli olub, bu elementləri özündə ehtiva edir:

- Qeyri-dövlət nəzarət xidmətləri;
- İcra hakimiyyəti orqanlarından asılı olmayan, qanunverici orqana tabe olan Hesablama Palatası;
- Büdcəyə vergi daxilomalarına nəzarət edən vergi qurumları;
- Daxili nəzarət xidmətləri və sair.

Totalitar tipli dövlətlərdə maliyyə nəzarəti qlobal və müntəzəm xarakter daşımaqla yanaşı, fiskal məqsədlərə də xidmət göstərir.

Beynəlxalq cəhətdən çoxillik təcrübələr əsasında maliyyə nəzarətinin təşkilinin əsas prinsipləri müəyyən edilmişdir, hər bir dövlət təcrübədə onların

reallaşmasına çalışmalıdır. Bu prinsiplər INTOSAI-nin (Ali nəzarət orqanlarının beynəlxalq təşkilatı) Lima deklarasiyasında öz əksini tapmışdır. Göstərilən deklarasiyada maliyyə nəzarətinin aparılması zamanı bu prinsiplərin nəzərə yetirilməsi əhəmiyyətli hesab edilir:

- Səriştəlilik və aşkarlıq;
- Müstəqillik və obyektivlik.

Qeyd etdiyimiz baza prinsiplərindən bir sıra törəmə pinsiplər də ortaya çıxır, bu prinsiplərə də aşağıdakılar aid edilir:

- effektivlik;
- dəqiqlik;
- nəticəlilik;
- professional davranış;
- müxtəlif nəzarət orqanlarının fəaliyyətlərinin əlaqələndirilməsi və s.

Maliyyə nəzarəti müxtəlif əlamətlərə əsasən sinifləndirilir və formalar təyin edilir.

Maliyyə nəzarətinin həyata keçirilmə vaxtından asılı olaraq üç formada özünü göstərir: ilkin, cari, sonradan nəzarət.

İlkin maliyyə nəzarəti müəssisələrin, həm də dövlətin maliyyə planlaşdırılması fəaliyyətində çox mühüm əhəmiyyətə malikdir. İlkin maliyyə nəzarəti müəssisələrin maliyyə planlarının, idarə və təşkilatların gəlir və xərc smetalarının, büdcə layihələrinin, müqavilə şərtlərinin və s. sənədlərin tərtib olunması və təsdiqi zamanı gerçəkləşdirilir. Bu zaman ilkin maliyyə nəzarəti maddi, əmək və maliyyə ehtiyatlarının qeyri-səmərəli istifadəsinin qarşısını almağa kömək edir, eyni zamanda təsərrüfat orqanlarının fəaliyyətlərinin mənfi nəticələrini aradan götürməyə imkan yaradır.

Bundan savayı, ilkin maliyyə nəzarətinin köməyi ilə maliyyə planlarının, gəlir və xərc layihələrinin tərtib edilməsi mərhələsində müəssisələrin əlavə ehtiyatları aşkar olunur. Bu maliyyə ehtiyatlarının artırılması və maliyyə vəziyyətlərinə görə müəssisələrin məsuliyyətinin gücləndirilməsi üçün xüsusilə əhəmiyyətlidir.

Cari maliyyə nəzarəti təsərrüfat – maliyyə əməliyyatlarının gerçəkləşdirilməsi prosesində maliyyə planlarının icrası zamanı yerinə yetirilir. Bu vaxt əmtəə dəyərlilərinin və pul vəsaitlərinin xərclənməsinin normalarını nəzarətdə saxlamaq mümkün olur.

Maliyyə nəzarətinin bu forması büdcə ilə hesablaşmaların tam, vaxtında və bütünlüklə gerçəkləşdirilməsi üçün müəssisə və təşkilatların fəaliyyətinin ardıcıl olaraq faktiki materiallara uyğun təhlil edilməsini nəzərdə tutur. Cari maliyyə nəzarətinin təsərrüfatdaxili yığım ehtiyatlarının artmasının araşdırılmasında vacib rol oynayır.

Daha sonra maliyyə nəzarəti hesabat dövrüvə maliyyə ili tamamilə başa çatdıqdan sonra həyata keçirilir. Bu nəzarət zamanı büdcənin icrası, müəssisə və təşkilatların maliyyə planlarının yerinə yetirilməsi zamanı pul vəsaitlərinin səmərəli xərclənməsi analiz edilir. Bununla yanaşı maliyyə nəzarəti ilkin maliyyə nəzarəti ilə qarşılıqlı əlaqəlidir. Daha doğru ifadə etsək, ilkin maliyyə nəzarətinə əsaslanır. Odur ki, sonrakı nəzarət, maliyyə əməliyyatları haqqında verilmiş ilkin nəzarət göstəricilərinə əsasən həyata keçirilir. (http://www.maliyye.gov.az:2018)

Mülkiyyət forması və ya həyata keçirildiyi obyektdən asılı olaraq maliyyə nəzarətinin aşağıdakı növlərini ayırd etmək olar:

1. Dövlət maliyyə nəzarəti;
2. Qeyri-dövlət maliyyə nəzarəti;

Ümumdövlət maliyyə nəzarəti maliyyə nəzarətinin əsas forması kimi dövlət hakimiyyət orqanları və idarələri tərəfindən baş tutur. O nəzarət edilməli obyektlərə idarəçilik tabeçiliyindən asılı olmayaraq yönəldilir.

Maliyyə nəzarətini həyata keçirən orqanların dairəsinə əsasən nəzarətin bu növləri vardır:

1. Prezident nəzarəti;
2. Parlament nəzarəti;
3. Təsərrüfatdaxili nəzarət;
4. Maliyyə-kredit orqanlarının nəzarəti;
5. Ümumi səlahiyyətli idarəçilik orqanlarının nəzarəti;

6. İdarədaxiili nəzarət;
7. Auditor nəzarəti.

Xüsusi səlahiyyətli dövlət orqanları tərəfindən həyata keçirilən maliyyə fəaliyyətinin məzmununa əsasən maliyyə nəzarətinin növlərini bu formada da təsnifləndirə bilərik:

1. valyuta nəzarəti;
2. vergi nəzarəti;
3. sığorta nəzarəti;
4. büdcə nəzarəti;
5. bank nəzarəti;
6. gömrük nəzarəti.

Dünya praktikasında maliyyə nəzarətinin 2 modeli formalaşmışdır:

1. Anqlo-sakson;
2. Fransız.

İlk modeldə dövlət maliyyə nəzarəti orqanları yalnız nəzarətin müxtəlif formalarını gerçəkləşdirir və onlar üzrə hesabat hazırlayır. Sanksiyalar haqqında məsələ isə hökumətin inzibati və ya məhkəmə orqanlarının səlahiyyətində idi.

Fransız modelində isə maliyyə pozuntuları, zərərin ödənilməsində şəxslərin təqsirinin müəyyən edilməsindən ötrü bəzi məhkəmə funksiyalarının ayrı-ayrı nəzarət orqanlarına verilməsi imkanlarını həyata keçirirdi.

Maliyyə nəzarətinin aşağıdakı metodlarını ayırd olar:

- Maliyyə;
- Təhlil;
- Müayinə;
- Yoxlama;
- Müşahidə;
- İqtisadi ekspertiza;
- Təftiş.

Müşahidə metodu özündə nəzarət olunan obyektin fəaliyyəti ilə tanışlığı, kompleks, mürəkkəb üsullardan istifadə etmədən informasiyanın əldə olunması və qiymətləndirilməsini birləşdirir.

Müayinə ilkin maliyyə nəzarətinin başlıca metodlarından hesab edilir. Yəni bu metod maliyyə təsərrüfat fəaliyyətinin müxtəlif yanlarının tədqiqinə istiqamətlənmişdir. Müayinə metodu faktların operativ üzə çıxarılması, maliyyə intizamına əməl edilməsi, nəzarət edilən obyektin daha dərin və hərtərəfli təhlil və tədqiq edilməsi məqsədəuyğunluğunu aydınlaşdırmaq məqsədilə tətbiq olunur. Bu metodun ən birinci məqsədi ümumi maliyyə-təsərrüfat fəaliyyətinin təhlili, onun problemlərinin üzə çıxarılmasıdır. Bu məqsədimizə aşağıdakı məsələlərin həlli vasitəsi ilə nail ola bilərik:

- Büdcə vəsaitlərinin düzgün icrası sahəsində normativ aktlara riayət olunmasının yoxlanılması;
- Maliyyə sənədlərinin araşdırılması (monitorinqi);
- Yoxlanılan obyektin maliyyə vəziyyətinin müəyyən eidlməsi;
- Dövlət (bələdiyyə) və digər xərclərin məqsədli təyinatı və əsaslandırılması səviyyəsinin qiymətləndirilməsi.

Təhlil maliyyə sənədlərinin düzgünlüyünün təyin edilməsində riyazi-analitik metodlardan istifadə edərək, spesifik metod kimi özünü göstərir. Qəbul olunduğu kimi maliyyə təhlilinin obyektini balanslar və mühasibat hesabatları təşkil edir. Onun başlıca vəzifəsi vergi bazasının uçot və hesabatda tam və zamanında əks olunmasının təyin edilməsidir. Maliyyə nəzarətinin bu metodu təsərrüfat subyektlərinin büdcəyə və büdcədənkənar fondlara (vergi orqanları, büdcədənkənar fondlar və s.) ödənişlər üzrə hesablaşmalar aparan maliyyə orqanları tərəfindən gerçəkləşdirilir. Tədqiq edilən obyektin maliyyə fəaliyyətinin təhlili sonrasında vergilərin qalıq hissəsi ödənilir və vergi bazası müəyyənləşdirilir. Bu proses də bələdiyyə yaxud dövlət büdcələrinin gəlirlərinin yüksəlməsinə nəzərəçarpan dərəcədə təsir edir.

Yoxlama metodu maliyyə nəzarətinin aparıcı metodlarından biri kimi özündə maliyyə qanunvericiliyinin pozulmasının aşkarlanması məqsədilə müəyyən

məsələlərin yoxlanması və tədqiqini əks etdirir. Nəzarət orqanı yoxlamaların gerçəkləşdirilməsi zamanı maksimal sayda sənədli məlumat mənbələri cəlb edərək, obyektin maliyyə fəaliyyətini yoxlamadan keçirir. İstənilən maliyyə əməliyyatları yoxlamanın obyekti hesab edilə bilər. Yoxlama aparmaq hüququna malik olan maliyyə nəzarəti agentləri, təcrübədə müraciət olunan bütün orqanlar yoxlamanın subyekti ola bilirlər. Aşağıdakılar bu qəbildən hesab olunur:

- Mərkəzi Bank bank əməliyyatlarının həyata keçirilməsinə nəzarət edir, kredit təşkilatlarının kassasında olan pul vəsaitləri, valyuta və digər qiymətlilərin inventarizasiyasını aparır;
- Hesablama Palatası dövlət büdcəsinin və büdcədənkənar fondların gəlir və xərc maddələrinin vaxtında icrasına nəzarət edir.

Ayrı-ayrı aspektlərdən yanaşsaq, yoxlamanın aşağıdakı növləri təsnifləndirilir:

- Tematik;
- Səyyar;
- Kompleks;
- Kameral;
- Sənədli;
- Qarışıq.

Yoxlamalar sona yetdikdən sonra aşkar edilmiş pozuntular barədə akt (yoxlama aktı) tərtib edilir yaxud (pozuntu olmadığı halda) yoxlayan şəxs və ya orqan tərəfindən yazılı rəy verilir. Yoxlama aktında bütün üzə çıxarılmış nöqsanlar əks edilir.

Mütəxəssislərin yoxlama apardığı dövr ərzində yoxlanılan subyektin maliyyə fəaliyyətinin və maliyyə əməliyyatlarının məqsədəuyğunluğunu və səmərəliliyini, maliyyə vəsaitlərinin həqiqi həcmini aydınlaşdırmaq məqsədilə maliyyə-iqtisadi ekspertiza həyata keçirilir. Maliyyə nəzarətinin yoxlama metodu çətin prosesdir və xeyli vaxt tələb edir. Lakin həm nəzarət edilən müəssisə, həm də nəzarət orqanı üçün olduqca önəm kəsb edir. Hansısa bir subyektin maliyyə fəaliyyətinin iqtisadi ekspertizasının aparılması zamanı müəssisənin biznes planı, dövri və illik

hesabatları, inkişaf plan-proqnozları təhlil olunur, buna əsasən yoxlanılan subyektin maliyyə fəaliyyətinin əsas iqtisadi göstəriciləri təhlil edilir.

Maliyyə nəzarətinin ən vacib metodu təftişdir. Təftiş - təşkilatların, idarələrin, müəssisələrin, sahibkarların maliyyə-təsərrüfat fəaliyyətinin öyrənilməsi istiqamətində kompleks yoxlanılması prosesidir. Geniş mənada, təftiş - maliyyə-təsərrüfat fəaliyyətinin şəffaflıq, qanunçuluq və məqsədyönlülük prinsipləri əsasında qurulduğuna əmin olmaq məqsədi ilə müəssisə, idarə və təşkilatlarda aparılan hərtərəfli, dərin və tam yoxlama formasıdır. Təftişin başlıca məqsədi nəzarət obyektinin maliyyə-təsərrüfat vəziyyəti haqqında tam və dürüst məlumatın əldə olunmasından, nəzarət obyektinin fəaliyyətində maliyyə və təsərrüfat pozuntularının, təsərrüfatsızlığın, dövlət vəsaitinin təyinatından kənarlaşdırılması və mənimsənilməsi hallarının aşkarlanmasından, pozuntulara yol verilməsinə səbəb olan şəraiti və dövlətə vurulmuş zərərin miqyasını müəyyənləşdirməkdən, zərərin təqsirkar şəxslər tərəfindən bərpa olunması və gələcəkdə belə pozuntulara yol verilməməsi məqsədilə müvafiq tədbirlərin görülməsindən ibarətdir. Təftiş maliyyə əməliyyatlarının düzgünlüyünü, məqsədəuyğunluğu və qanuniliyini təyin etmək məqsədi ilə aparılır. maliyyə-təsərrüfat fəaliyyətinin aşağıdakı sahələri yoxlanılır:

- Maddi və pul ehtiyatlarının qorunması;
- Maliyyə intizamına riayət olunması;
- Mühasibat uçotunun aparılmasının və hesabatların tərtib edilməsinin düzgünlüyü;
- Dövlət pul vəsaitlərinin səmərəli istifadəsi.

Təftişin yoxlama obyektinə görə aşağıdakı növləri vardır:

- faktiki təftiş;
- sənədli təftiş;
- tam təftiş;
- qismən təftiş.

Faktiki təftiş həm sənədlərin, həm də maddi sərvətlərin yoxlanılması prosesidir. Ancaq bu məsələdə bir şeyə xüsusi fikir vermək lazımdır ki, adından da göründüyü kimi bu təftiş növü faktın təftiş edilməsi halıdır. Bu cür faktlar hansısa

bir informasiya əsasında və ya qanunvericiliklə bağlı ola bilər. Nümunə üçün, əgər hansısa bir sahədə pozğunluq haqqında məlumat verilirsə, göstərilən fakt barədə yoxlama aparılır. Başqa nümunəyə baxsaq, qüvvədə olan vergi qanunvericiliyinə əsasən, hansısa bir verginin ödənib ödənmədiyini yoxlamaq məqsədilə vergi orqanları faktiki təftiş aparır, həmin verginin köçürüldüyünə əmin olurlar. Praktiki olaraq, faktiki təftiş kameral təftiş də adlanır.

Sənədli təftiş maliyyə-təsərrüfat fəaliyyətini özündə əks etdirən maliyyə sənədlərinin - order və çeklər, hesabatlar, ödəmə sənədləri, lisenziya və balansların və s. yoxlanılması ilə aparılır. Sənədli təftiş aparılarkən, nağd pul vəsaitlərini yoxlamadan, əsas sənədlər əsasında pozuntuları aşkara çıxarmaq mümkündür.

Tam təftiş müəssisə, idarə və təşkilatların maliyyə-təsərrüfat fəaliyyətinin ümumilikdə bütün sahələrinin(yəni, gəlirlərin, xərclərin planlaşdırlması, malların satışı və s. sahələri) yoxlanılması prosesidir. Tam təftiş müəyyən müddətdə, məsələn, bir il və ya iki il müddətində həyata keçirilən bütöv fəaliyyətin təhlil edilməsidir.

Tam təftişdən fərqli olaraq, qismən təftiş aparılarkən nəzarətin diqqəti maliyyə-təsərrüfat fəaliyyətinin hansısa konkret bir sahəsinə istiqamətlənir. Məsələn, idarənin vergi sahəsində, və ya ezamiyyət xərcləri və s. sahələrinin hər biri yoxlamanın obyekti ola bilir. Qismən təftiş bəzi mənbələrdə "seçmə təftiş" də adlanır. Seçmə təftiş aparılarkən, təftiş sənədlərində təftiş növünün adı xüsusilə qeyd edilməlidir.

# II FƏSİL. AZƏRBAYCANDA MALİYYƏ SİSTEMİNİN TƏNZİMLƏNMƏSİNDƏ MALİYYƏ NƏZARƏTİNİN ROLUNUN TƏHLİLİ VƏ QİYMƏTLƏNDİRİLMƏSİ.

## 2.1 Respublikamızda maliyyə sisteminin tənzimlənməsində dövlət maliyyə nəzarəti rolunun təhlili.

Maliyyə nəzarəti cəmiyyətin iqtisadi həyatının fərqli sahələrində və təsərrüfatın ayrı – ayrı səviyyələrində irəli sürülən tələblərə müvafiq idarə edilməsini təşkil etmək üçün mürəkkəb və fərqli məsələləri icra edir.

Maliyyə nəzarətinin gerçəkləşdirdiyi obyektlərdən asılı olaraq, dövlət, ictimai, təsərrüfatdaxili və müstəqil (auditor) maliyyə nəzarəti kimi ayrılırlar. Dövlət maliyyə nəzarəti ümumdövlət və idarələr tərəfindən reallaşdırılır.

Ümumdövlət maliyyə nəzarəti dövlət hakimiyyət orqanları, icraedici orqanlar, maliyyə, kredit, vergi, sığorta təşkilatları, baş idarələr, komitə, yerli hakimiyyət orqanlarının maliyyə xidməti şöbələri, ictimai və kooperativ birliklərin təftiş komissiyaları tərəfindən gerçəkləşdirilir.Bunlara Azərbaycan Respublikasının Hesablama Palatası,Azərbaycan Respublikasının Maliyyə Nazirliyi,Azərbaycan Respublikasının Iqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidməti,Dövlət Gömrük Komitəsi,Azərbaycan Respublikasının Mərkəzi Bankı,Auditorlar palatası daxildir.Onlar nəzarət edilməli obyektlərə idarəçilik tabeçiliyindən aslı olmayaraq istiqamətləndirilir.

Hesablama Palatası maliyyə nəzarəti orqanı olaraq maliyyə sisteminin təşkilində çox önəmli rol oynayır. Hesablama palatası aşağıdakı funksiyaları yerinə yetirir:

- Dövlət büdcəsinin icrası haqqında illik hesabata və müvafiq qanun layihələrinə rəy vermək;
- Dövlət əmlakının idarə olunması, onun barəsində sərəncam verilməsi və dövlət əmlakının özəlləşdirilməsindən əldə olunan vəsaitlərin dövlət büdcəsinə daxil olmasına nəzarəti yerinə yetirmək;
- Dövlət büdcəsinin və büdcədənkənar dövlət fondlarının büdcələrinin layihələrinə rəy vermək, onların büdcələrinin gəlir və xərc maddələrinin həcmi, strukturu və təyinatı üzrə zamanında icrasına nəzər yetirmək;
- Dövlət büdcəsindən maliyyələşdirmələrin təsdiq edilmiş dövlət büdcəsində müəyyən olunduğu kimi aparılmasını təhlilini aparmaq, aşkar olunmuş kənarlaşmaların aradan qaldırılması, həmçinin ümumilikdə büdcə prosesinin təkmilləşdirilməsi barəsində təkliflər hazırlayıb Milli Məclisə təqdim etmək;
- Azərbaycan Respublikası Milli Məclisinin və onun daimi komissiyalarının göstərişi ilə dövlət büdcəsi və büdcədənkənar dövlət fondları ilə bağlı qanun layihələrinin, Milli Məclisdə təsdiq olunan Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrin maliyyə ekspertizasını gerçəkləşdirmək;

– Dövlət büdcəsinin vəsaitlərinin və büdcədənkənar dövlət fondlarının vəsaitlərinin bank hesablarında istiqaməti barədə Azərbaycan Respublikasını Milli Bankından və müvəkkil banklardan, kredit təşkilatlarından məlumatlar əldə edib təhlil aparmaq və Azərbaycan Respublikasının Milli Məclisinə təkliflər irəli sürmək;

– Dövlət büdcəsi vəsaitlərinin xəzinə hesabına daxil edilməsinin və istifadəsinin təsdiq edilmiş dövlət büdcəsində müəyyən olunmuş göstəricilərə uyğunluğunu təhlil edib Milli Məclisə xəbər vermək;

– Dövlət büdcəsinin və icmal büdcənin gəlirləri və xərclərinin, həmçinin büdcədənkənar dövlət fondlarının auditini həyata keçirmək.

2020-ci ildə mövcud pandemiya ilə əlaqədar yaranan problemlər sözsüz ki,ölkənin maliyyə sisteminə təsirsiz ötüşməmişdir.İlk növbədə neftin qiymətinin aşağı düşməsi dövlət büdcəsinə təsiri böyük olmuşdur.Bu səbəbdən Hesablama Palatası ““Azərbaycan Respublikasının 2020-ci il dövlət büdcəsi haqqında” Azərbaycan Respublikası Qanununda dəyişiklik edilməsi barədə” rəyi olmuşdur.

Rəydə dövlət büdcəsinin başlıca parametrlərini göstərən makroiqtisadi mühitin araşdırılması, layihədə nəzərdə tutulmuş dövlət büdcəsinin gəlir və xərc göstəricilərinin önəmli parametrlərinin müəyyən edilmiş vəzifələrə uyğunluğunun təhlilinə, dövlət büdcəsinin 2020-ci ilin müvafiq dövrü üzrə icra vəziyyətinə diqqət yetirilmişdir.

Rəyin hazırlanmasında Maliyyə nazirliyinin və Statistika Komitəsinin hesabat və statistik məlumatlarından istifadə olunmuşdur. (www.stat.gov.az:2021)

Koronavirus infeksiyasının qarşısının alınması üçün tətbiq olunan genişmiqyaslı karantin və ya özünütəcrid tədbirləri nəticəsində bir çox ölkələrin iqtisadiyyatında sklerotiklik izlənmiş, reallaşdırılan əməliyyatların sayı kəskin dərəcədə azalaraq minimuma enmiş, habelə bir sıra bazarlar fəaliyyətini demək olar ki dayandırmaq məcburiyyətində qalmışdır.

“Qlobal karantin” tədbirləri nəticəsində sıxılmaqda davam edən dünya iqtisadiyyatının zəifləməsi tendensiyasının getdikcə artması və xəstəliyin davametmə müddəti həmçinin genişlənmə miqyasının qeyri-müəyyənliyi 2020-ci il üzrə dünya iqtisadiyyatına məxsus proqnozlara yenidən baxılması zərurəti

yaratmışdır. 2020-ci ilin aprel ayında Beynəlxalq Valyuta Fondu (BVF) tərəfindən dünya üzrə iqtisadi artım tempinin -3,0% olacağı proqnozu verilsə də, iyun ayında bu rəqəmlərə yenidən düzəliş olunmuş və qlobal azalmanın 4,9% gözlənildiyi qeyd edilmişdir. Yenilənmiş proqnozlara görə, ABŞ və Avrozona üzrə azalmanın müvafiq olaraq 8,0% və 10,2% olmuşdur (məlumat üçün: aprel proqnozları -5,9% və -7,5%) (Azərbaycan Respublikasının 2020-ci il dövlət büdcəsi haqqında" Azərbaycan Respublikası Qanununda dəyişiklik edilməsi barədə" Hesablama Palatasının rəyi:2021)

Respublikamızın iqtisadiyyatı üçün strateji məhsul olan neftin qiyməti ilk 6 ayda yüksək dərəcədə volatillik sərgiləmiş, mart ayında yüksək tərəddüdlərin izlənməsi məlum olan virus səbəbilə azalmaqda olan Brent markalı neftin qiymətinin fevral ayında orta hesabla 55,6 ABŞ dolları qiymətindən aprel ayında isə26,60 ABŞ dollarına qədər azalması ilə nəticələnmişdir. Beləliklə, 2020-ci ilin ilk yarısı ərzində Brent markalı neftin orta aylıq qiyməti 42,10 ABŞ dollarına bərabər olmuş, 2019-cu ilin müvafiq göstəricisi ilə müqayisədə 36,1% dəyər itirmişdir. Nəticə etibarı ilə neft ixracatçısı olan ölkələrin iqtisadiyyatları neft gəlirlərinin əhəmiyyətli dərəcədə azalması təhlükəsi ilə qarşılaşmış, digər ölkələrdən fərqli olaraq, pandemiyanın iqtisadiyyata olan birbaşa mənfi təsirlərindən savayı dəyər itirən neft qiymətləri kimi dolayı neqativ təsirlərinə də məruz qalmışdır.

2020-ci ilin yanvar-iyun ayları ərzində Azərbaycan Respublikasında 33802,80 mln. manatlıq əlavə dəyər istehsal olunmuş, bu isə 2019-cu ilin müvafiq dövrü ilə müqayisədə real qiymətləndirmədə 2,7% az olmuşdur. Qlobal karantin səbəbilə dünya iqtisadiyyatında qeydə alınmış durğunluq halları ölkə iqtisadiyyatında da müşahidə olunmuş, sektoral bölgü üzrə statistik məlumatlara əsasən, azalma meyilləri həm neft, həm də qeyri-neft sahələrində izlənmişdir.

2020-ci ilin dövlət büdcəsinə yenidən baxılması üçün hazırlanmış müvafiq sənəd və məlumatlarda Ümumi Daxili Məhsulun (ÜDM) 2020-ci il üçün göstəricisi dəqiq olaraq qeyd edilməsə də, təqdim edilmiş izahatda büdcə gəlirlərinin ÜDM-ə nisbətinin 35,4% olması qeyd olunmuşdur və aparılmış hesablamalar 2020-ci il üçün Ümumi Daxili Məhsulun nominal ifadədə 68338,8 mln.manat nəzərə alındığını göstərir.Habelə, real ifadədə ÜDM-in 5,0% azalacağı proqnozu verilmişdir. Bu

göstəricilərin 2020-ci ilin dövlət büdcəsinin layihəsi ilə bağlı təqdim olunmuş göstəricilərdə (“Büdcə zərfi”) qeyd olunmuş proqnoz göstəriciləri ilə müqayisəsinə əsasən, ÜDM-in nominal ifadədə proqnozu 14982,5 mln.manat, artım tempi isə 8 faiz nisbətində azaldılmışdır (əvvəlki proqnozda 3,0% artım proqnozlaşdırılmışdır).

Ümumi Daxili Məhsulun neft faktoru üzrə dekompozisiyasına görə, 2020-ci ilin birinci hissəsində neft ÜDM-i 2019-cu ilin müvafiq dövrü ilə müqayisədə real ifadədə 2,9% geriləmişdir. 10761,5 mln.manat dəyərində əlavə dəyərin illik qiymətləndirmədə azalması neft hasilatının mənfi dinamika ilə davam etməsi ilə izah edilə bilər.

**Cədvəl 1. Neft sahələrində yaradılmış əlavə dəyər**

| Göstəricilər | Ölçü vahidi | Yanvar-iyun | |
|---|---|---|---|
| | | 2019 | 2020 |
| Neft ÜDM-i | mln.manat | 15603,6 | 10760,4 |
| | % | 1,3 | -2,9 |
| Neft hasilatı | % | -3,0 | -4,9 |
| Qaz hasilatı | % | 35,0 | 14,9 |

**Mənbə:** “Azərbaycan Respublikasının 2020-ci il dövlət büdcəsi haqqında” Azərbaycan Respublikası Qanununda dəyişiklik edilməsi barədə” Hesablama Palatasının rəyi, 2021

2020-ci ilin dövlət büdcəsinin gəlir və xərcləri ilin ilk yarısı ərzində proqnoz göstəriciləri ilə müqayisədə müvafiq olaraq 103,4% və 100,8% səviyyəsində icra olunmuşdur.

**Cədvəl 2. Hesabat dövründə dövlət büdcəsinin gəlir və xərcləri, mln. Manatla**

| | 2020-ci il üçün təsdiq edilmiş proqnoz | Rüblər və aylar üzrə bölgüyə əsasən 6 ay üçün proqnoz | | 6 ay icra | | |
|---|---|---|---|---|---|---|
| | | *faiz* | *məbləğ* | *faiz* | *məbləğ* | *icra səviyyəsi* |
| Dövlət büdcəsinin gəlirləri | 24 134,5 | 48,4 | 11 684,5 | 50,0 | 12 075,9 | 103,3 |
| Dövlət büdcəsinin xərcləri | 26 894,7 | 43,2 | 11 625,7 | 43,6 | 11 730,8 | 100,9 |

**Mənbə:** “Azərbaycan Respublikasının 2020-ci il dövlət büdcəsi haqqında” Azərbaycan Respublikası Qanununda dəyişiklik edilməsi barədə” Hesablama Palatasının rəyi, 2021

“Azərbaycan Respublikasının 2020-ci il dövlət büdcəsi haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının Qanun layihəsinə dair İzahatda 2020-ci ilin 6 ayı üçün dövlət büdcəsinin gəlirləri 12022,7 10 mln. manat, xərcləri 11730,8 mln. manat, profisiti isə 291,9 mln. manat məbləğində qeyd edilmişdir.

2019-cu ilin mart ayından müşahidə olunan “COVID-19” pandemiyası ayrı-ayrı ölkələr üzrə makrofiskal çərçivənin xüsusiyyətlərinin sürətlə dəyişməsi və dövlət maliyyəsinin idarə olunması sisteminin “institusional dayaqlarının” zəifləməsinə gətitib çıxardı ki, bu da maliyyəçiləri və iqtisadçıları dövlət fondlarının idarə olunmasına yeni təfəkkürlə baxmağa məcbur etdi.

İlkin olaraq dəyişikliklər neftdən asılı olan ölkələri iki yerə böldü:

- təbii resursdan əldə olunan gəlirlər hesabına lazımi “fiskal fəza” yaratmış ölkələr;
- bu növ “fiskal fəza” olmayan ölkələr.

Dünyada 30-dan çox dövlət pandemiyanın qarşısının alınması üçün dövlət büdcəsi haqqında 2020-ci ilin qanununa əlavələr və dəyişikliklər etmiş və ya hazırda bu prosesi davam etdirirlər.

Beynəlxalq Valyuta Fondu pandemiya dövründə ölkələrin iqtisadiyyata büdcə vasitəsilə lazımi müdaxiləsini məcburi hesab edir. Bunu ilk öncə baş verən yoluxmanın çox böyük fəsadları ilə əlaqələndirir. Bu böhranın əvvəlkilərdən tamamilə fərqləndiyini habelə, vəziyyətin daha çox “müharibə” kimi qiymətləndirildiyini qeyd edir. Hazırkı vəziyyətdə 2 mərhələdə tədbirlər reallaşdırılmalıdır:

-1-ci mərhələ “müharibə”. Pandemiya ən yüksək səviyyəyə çatır. Virus daha çox yayılır. Belə fikirləşmək olar ki, bu ən azı bir və ya bir neçə il davam edəcəkdir.

2-ci mərhələ “müharibədən sonrakı bərpa” adlanır. Pandemiya daha çox tibbi vasitələrlə nəzarətə alınacaq, iqtisadiyyat keçmiş vəziyyətinə dönəcəkdir.

BVF reallaşdırılacaq tədbirləri 3 istiqamət üzrə qruplaşdırır.

- Həyati əhəmiyyət kəsb edən sektorların fəaliyyətinin bərpası istiqaməti;

–Böhrandan əziyyət çəkən subyektlərə lazımi miqdarda resursların təqdim olunması;

–İqtisadiyyatın daha dərin fəsadlarla nəticələnməsinin qarşısının alınması.

BVF 2020-ci il oktyabr ayında nəşr etdiyi “Fiskal icmal” bülletenində pandemiya tədbirlərinin nəticəsi olaraq dünya üzrə məcmu fiskal balansın Ümumi Daxili Məhsula nisbətinin 2019-cu ildəki -3,9%-dən 2020-ci ildə -12,7%-dək, 2021-ci ildə isə -7,6%-dək yüksələcəyini proqnoz edilir.

2020-ci ildə dünyanı əhatəsinə alan yeni növ koronavirus (COVİD 19) pandemiyası dünya ölkələrinin dövlət büdcəsi üzrə xərclərə yenidən nəzər yetirilməsi meyillərini şərtləndirmişdir. Pandemiya vəziyyətində Avropa Birliyi və Beynəlxalq Valyuta Fondu üzrə bu istiqamətdə hazırlanan təklifləri aşağıdakı kimi cəmləmək olar:

– Vergilər üzrə başlıca addımlar xüsusilə səhiyyə sektoruna, kiçik və orta sahibkarlığa vergi güzəştlərini, həmçinin vergi tətilləri formasını aid edir;

– Fiskal intizam normasının dayandırılması – həm borc dayanıqlılığı, həm də təbii resursdan asılılıqla bağlı müəyyən olunan fiskal institutların (o cümlədən, 3,00%-lik büdcə kəsri limitinin və ümumi olaraq büdcə qaydasının) “icrasının müvəqqəti dayandırılması”nı qeydedir.

– Büdcə xərcləri üzrə başlıca addımlar iqtisadiyyatın xüsusilə kiçik və orta sahibkarlığın kreditləşməsi, subsidiyaların verilməsi, özəl sektorda əmək haqlarının kompensasiya olunması, dövlətin pul yardımları və səhiyyə sektoruna maliyyə yardımını özündə birləşdirir.

Ticari müharibələr fonunda artan qeyri-müəyyənliyin məcmu tələbin miqdarına azaldıcı təsir etməklə, neft qiymətlərinə də mənfi təsir ötürəcəyi gözlənilsə də, 2020-ci ildə kəskin azalma trayektoriyalarına malik olan, hətta mənfi rekordlara imza atan neft 14 qiymətləri daha çox qlobal səhiyyə böhranının təsirlərini özündə birləşdirmişdir. Belə ki, OPEC təşkilatının nəşr etdiyi aylıq statistik bülletenlərə görə, neft qiymətlərində ilin yanvar-oktyabr aylarında keçən ilin müvafiq dövrü ilə müqayisədə “WTI” markası üzrə 32,4%, “Brent” markası üzrə 33,8%, OPEC səbəti üzrə isə 36,8% ucuzlaşma qeydə alınmış, 2020-ci ilin 10 ayı

üzrə neftin orta qiyməti bu markalar üzrə uyğun olaraq, 38,5 ABŞ dolları, 42,5 ABŞ dolları və 40,6 ABŞ dolları qeydə alınmışdır.

Dövlət Statistika Komitəsinin (DSK) açıqladığı məlumatlara görə, 2020-ci ilin yanvar-oktyabr aylarında 58468,5 mln. manatlıq əlavə dəyər istehsal edilmişdir ki, bu da keçən ilin müvafiq dövrü ilə müqayisədə real ifadədə 3,8% azalma deməkdir. Burada qeyd etdiyimiz kimi, dünyanın əksər ölkələrində izlənən neqativ dinamika pandemiya və onun nəticələrinin aradan götürülməsi ilə əlaqədar tətbiq olunan sərt karantin rejiminin nəticəsidir və təbii ki, bu tip tədbirlərin təsirlərinin Azərbaycan iqtisadiyyatına da transmissiya olunması gözlənilən idi. Keçən ilin yanvar-oktyabr aylarında müşahidə edilmiş artım tempindən 5,9 faiz bəndi daha aşağı illik dəyişmənin qeydə alınması həm qeyri-neft, həm də neft sektorlarının azalmasından formalaşmışdır. (www.stat.gov.az:2021)

Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 24 avqust tarixli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında dövlət borcunun idarə edilməsinə dair orta və uzun müddət üçün Strategiya"nın əsas məqsədi 2018–2025-ci illərdə dövlət borcunun idarə edilməsi sahəsində gələcək illər üzrə dövlət borcunun dayanıqlılığını təmin etməklə Ümumi Daxili Məhsula nisbətinin qismən azaldılmasına nail olmaqdır. Strategiyanın gerçəkləşdirilməsi üçün aşağıdakı hədəflər müəyyən olunmuşdur:

- Risklərin idarə olunması sisteminin təkmilləşdirilməsi;
- İdarəolunan və dayanıqlı dövlət borcu səviyyəsi;
- Dövlət borcalmaları üzrə infrastrukturun və nəzarət mexanizmlərinin optimallaşdırılması.

2021-ci ildə büdcə-vergi siyasəti üzrə aşağıdakı tədbirlərin reallaşdırılması nəzərdə tutulur:

- İqtisadiyyatın neft sektorundan asılılığının azaldılması üçün büdcənin qeyri-neft gəlirlərinin artırılması 2021-ci ildə davam edəcəkdir. Bu əsasda qeyri-neft sektorunda fəaliyyət göstərən müəssisələrin neft sektorunda baş verən hadisələrdən asılılığının minimuma endirilməsi, qeyri-neft ixracın coğrafiyasının və nomenklaturasının genişləndirilməsi, iqtisadiyyatın

diversifikasiyası, kölgə iqtisadiyyatının səviyyəsinin minimuma endirilməsi, vergi inzibatçılığının optimallaşdırılmasına yönəlmiş tədbirlərin icrası davam etdiriləcəkdir.

– Dövlət büdcəsinə daxilolmalar üzrə vahid nəzarət sisteminin tətbiqinin genişlənməsinin, kölgə iqtisadiyyatının minimuma enməsi hesabına vergi daxilolmalarının artırılmasının, vergi inzibatçılığı sahəsində obyektivliyin təmin edilməsinin, dövlət müəssisələrində daha təkmil korporativ idarəetmə üsullarının tətbiqinin, maliyyə öhdəliklərinin zamanında və bütöv həcmdə ödənilməsinin təmin olunmasının, vergi ödəyiciləri ilə vergi orqanları arasında qarşılıqlı güvənə söykənən münasibətlərin yaxşılaşdırılmasının, həmçinin vergi borclarının ödənilməsi yönündə əlverişli şəraitin qurulmasının 2021-ci ildə yığımların əsaslı artımına səbəb olacağı gözlənilir.

– Dövlət büdcəsi xərclərinin sosial yönümlülüyünün təmin olunması, dövlət büdcəsinin vəsaiti hesabına reallaşdırılması nəzərəalınmış dövlət proqramlarının və tədbirlərinin maliyyələşdirilməsi 2021-ci ildə büdcə xərclərinin başlıca yönlərindən olacaqdır.

– İnsanların sağlamlığının etibarlı formada qorunması məqsədilə səhiyyə sferasında mövcud çağırışlar nəzərə alınaraq, bəhs olunan sahə üzrə ənənəvi dövlət proqramlarının icrası ilə bərabər sanitar-epidemioloji vəziyyətin nəzarətə alınmasına yönəlmiş uyğun planların maliyyələşdirilməsinə əsaslı önəm veriləcəkdir. Qeyd edək ki, yeni növ koronavirus pandemiyasının davamlı olması vəziyyətində koronavirus infeksiyası ilə mübarizə tədbirlərində iştirak edən tibb personallarının sosial müdafiəsinin artırılması, pandemiyanın artmasının qarşısının alınması və pandemiya ilə mübarizənin gücləndirilməsi məqsədilə lazımi tibbi vəsaitlərin və digər tibbi avadanlıqların tədarükünün gerçəkləşdirilməsi, virusa yoluxmuş pasiyentlərinn müalicəsinin optimal təşkili məqsədilə respublikanın müvafiq zonalarında modul tipli xəstəxanalar yaradılması, həmçinin sanitar-epidemioloji şəraitə nəzarətin təkmilləşdirilməsi və virusa yoluxmuş və onlarla təmasda olan insanların monitorinqinin aparılması məqsədilə şəhər və rayon gigiyena və

epidemiologiya mərkəzlərinin maddi-texniki şəraitinin yaxşılaşdırılması yolunda effektiv tədbirlərin reallaşdırılmasının davam etdirilməsi, həmçinin peyvənd dozalarının alınması nəzərdə tutulub.

– İşğaldan azad olunmuş torpaqlarda böyük qayıdışın həyata keçirilməsi, şəhər və kəndlərin infrastrukturunun bərpası və yenidən qurulması, bu bölgədə modern infrastrukturların qurulması (elektrik enerjisi, su, təbii qaz, texnalogiya və rabitə, səhiyyə, təhsil, yol, mədəniyyət, mənzil-kommunal və s. zəruri infrastrukturlarını və mədəni-tarixi abidələrin restavrasiyası və bərpası), şəhid ailələrinin,qazilərin, müharibə əlillərinin və bu kateqoriya daxil olan müharibə iştirakçılarının sosial müdafiəsinin daha da artırılması üçün maliyyə təminatının reallaşdırılması uzunmüddətli dövrdə büdcə xərclərinin prioritet istiqamətlərindəndir.

– İşğaldan azad edilmiş torpaqlarda böyük qayıdışın təmin edilməsi üçün şəhər və kəndlərin restavrasiyası və yenidən qurulması, həmin ərazilərdə müasir infrastrukturların yaradılması (elektrik enerjisi,su, təbii qaz, texnologiya, rabitə, təhsil, səhiyyə,yol, mədəniyyət, mənzil-kommunal və digər lazımi infrastrukturlarını və mədəni-tarixi abidələrin restavrasiyası və yenidənqurulması, yaşayış evlərinin tikintisi və s.) məqsədi ilə 2021-ci ilin dövlət büdcəsindən 2,20 mlrd.manat vəsaitin ayrılması nəzərə alınmışdır.

Dövlət büdcəsinin 2021-ci il üçün proqnozlaşdırılmış gəlirləri 25427,0 mln. manat nəzərdə tutulmuşdur. 2019-cu ilin icra göstəricisindən 1208,9 mln. manat və ya 5,0%, 2020-ci ilin proqnozu ilə müqayisədə isə 1303,0 mln. manat və ya 5,4% artıqdır.

**Diaqram 1. 2019-2021-ci illər üzrə dövlət büdcəsinin gəlirləri ilə bağlı məlumat**




**Mənbə:** "Azərbaycan Respublikasının 2020-ci il dövlət büdcəsi haqqında" Azərbaycan Respublikası Qanununda dəyişiklik edilməsi barədə" Hesablama Palatasının rəyi, 2021

İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidmətinin xətti ilə təmin edilən dövlət büdcəsinin gəlirləri üzrə 1 oktyabr 2020-ci il tarixinə vergi ödəyicilərinin dövlət büdcəsinə olan borcları ümumi olaraq 1503,3 mln. manat (o sıradan, verginin əsas məbləği üzrə 997,7 mln. manat, maliyyə sanksiyaları üzrə 211,5 mln. manat, faizlər üzrə isə 294,1 mln. manat), artıqödəmələri isə 2466,9 mln. manat olmuşdur. (http://economy.gov.az:2021)

Vergi orqanları xətti ilə dövlət büdcəsinə daxil olunan gəlirlər üzrə 2020-ci ilin 9 ayı boyunca borcun 296,4 mln. manat dəyərində ümumi artımının 58,6%-i verginin əsas məbləği, 23,3%-i faizlər, 18,1%-i maliyyə sanksiyaları üzrə təşkil etmişdir. Borcların çoxalması ilk növbədə ticarət və xidmət, həmçinin tikinti sahələrində çıxış edən xüsusi mülkiyyət mənsubiyyətinə aid olunan vergi ödəyicilərinin öhdəliklərinin zamanında ödənilməməsi ilə əlaqədar əmələ gəlmişdir.

Dövlət büdcəsinə olan borcların çoxalmasının tədiyə növləri dərəcəsində səbəbləri başlıca olaraq sadələşdirilmiş vergi, torpaq vergisi, gəlir vergisi,hüquqi şəxslərin əmlak vergisi və mənfəət vergisi üzrə hesablanmış öhdəliklərin tam məbləğdə ödənilməməsi ilə bağlıdır. Vergi orqanları tərəfindən həyata keçirilən büdcə gəlirləri haqqında hesabat formasında məhkəmələrin qərarları əsasında əmlaka yönəldilən borc dərəcələrinin hesabat ilinin əvvəlinə və sonuna olan

qalıqların tərkibinə aid olunması nəzərdə saxlanılmamışdır ki, bu da vergilər üzrə 01.10.2020-ci il tarixə yuxarıda qeyd edilmiş 1502,2 mln. manat həcmində borcun əslində daha böyük məbləğlərlə ifadə olunmasını deməyə dəlalət edir.

2021-ci il dövlət büdcəsinin xərcləri 28543,0 mln. manat məbləğində planlaşdırılmışdır. Bu, 2019-cu ilin faktiki icrası ilə müqayisə olunduqda 4118,1 mln. manat və ya 16,8%, cari illə müqayisədə isə 1587,3 mln. manat və ya 5,9% artıqdır.

2021-ci il dövlət büdcəsi kəsirinin 1300,0 mln. manat məbləğinin maliyyələşdirilməsi daxili borclanmadan (ölkə daxilində qiymətli kağızların (dövlət istiqrazlarının) yerləşdirilməsindən) daxilolmalar hesabına nəzərdə tutulmuşdur. Dövlət büdcəsi kəsirinin maliyyələşdirilməsinə 2019-cu ildə daxili və xarici borclanmadan daxilolmalar hesabına 634,5 mln. manat ayrılmış, 2020-ci ilin 10 ayı ərzində müvafiq daxilolmalar üzrə 1530,1 mln. manat həcmində proqnoza qarşı kəsirin maliyyələşdirilməsinə 83,7 mln. manat məbləğində vəsait dövlət büdcəsinə mədaxil olunmuşdur.

Hazırki  iqtisadi şəraitdən və bazar konyunkturundan asılı olaraq və investor şəbəkəsinin məhdudluğunu nəzərdə tutaraq Hesablama Palatası təkrar bazarın inkişaf etməməsi vəziyyətində emissiya olunan qiymətli kağızlara marağın azalması ehtimalını diqqətə çatdırır. Bütün bunlar isə öz sırasında növbəti ildə istiqrazlar üzrə geri ödəniləcək borcun təkrar maliyyələşmə hesabına təmin olunması həm də büdcə defisitinin bağlanması üçün dövlət istiqrazları hesabına vəsait cəlb olunma imkanlarının məhdud olmasını şərtləndirməklə bərabər daxili borclanma üzrə risklərin, o sıradan faiz risklərinin nəzərdə saxlanılmasını aktuallaşdırır.

2021-ci il üçün xarici dövlət borcu üzrə ödənişlər, 2032,7 mln. manat həcmində proqnoz edilmişdir ki, bu da dövlət borcuna xidmətlə əlaqəli xərclərin cəmi məbləğinin 92,3%-inə, dövlət büdcəsi gəlirlərinin 8,1%-inə, dövlət büdcəsi xərclərinin isə 7,2%-inə bərabərdir.

## 2.2 Maliyyə sisteminin tənzimlənməsində nəzarət orqanlarının rolunun qiymətləndirilməsi.

Hakimiyyətin bölgüsü prinsipi icra hakimiyyəti orqanları tərəfindən maliyyə nəzarətinin reallaşdırılması məqsədilə vacib rol oynayır və onun üçün yeni məzmun yaradır. Maliyyə nəzarətini gerçəkləşdirən dövlət orqanları bunlardır:

- Azərbaycan Respublikasının Mərkəzi Bankı;
- Azərbaycan Respublikasının Maliyyə nazirliyi;
- Azərbaycan Respublikasının Hesablama Palatası;
- Prezidentin İcra Aparatının Dövlət Nəzarəti şöbəsi;
- Dövlət Gömrük Komitəsi;
- Azərbaycan Respublikasının Iqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidməti;
- Auditorlar palatası.

Hesablama Palatası (səlahiyyətləri 1999–cu ildə qüvvəyə minmiş) haqqında Azərbaycan Respublikası Qanunu ilə təyin edilən Azərbaycan Respublikası Hesablama Palatası öz fəaliyyətinə başlamışdır. Təcrübi olaraq respublikamızda kənar dövlət maliyyə nəzarəti institutunun bünövrəsi qoyulmuşdur. Ölkəmizdə səmərəli maliyyə nəzarəti sisteminin inkişafı istiqamətində əhəmiyyətli cəhdlər edilmişdir.

Dövlət mülkiyyətinə və dövlət pul vəsaitlərinə nəzarət etmək Hesablama Palatasının səlahiyyət dairəsinə daxildir. Maliyyə nəzarəti sistemində icra hakimiyyəti orqanları tərəfindən başlıca yer Azərbaycan Respublikasının Hesablama Palatasına məxsusdur. Bütün hüquqi şəxslərə - Dövlət orqanları və müəssisələri, həmçinin kommersiya bankları, dövlət büdcədənkənar fondları, yerli özünüidarəetmə orqanları, sığorta şirkətləri, həm də digər kommersiya firmaları və qeyri-dövlət kommersiya təşkilatlarına nəzarət edilir. Azərbaycan Respublikasının Hesablama Palatasının vəzifəli şəxsləri qarşısında bu vəzifələr irəli sürülüb:

- Dövlət vəsaitlərinin xərclənməsinin effektivliyinin və səmərəliliyinin qiymətləndirilməsi. Büdcədən ayrılmış vəsaitlərin təyaninatı üzrə

sərfiyyatını, sərf edilmiş vəsaitlərin likvidlilik səviyyəsinin qiymətləndirilməsini təşkil edir.

- Dövlət mülkiyyətinin özəlləşdirilməsindən, satışı və idarə edilməsindən dövlət büdcəsinə daxil olan pul vəsaitlərinə nəzarət.
- Büdcə prosesinin tənzimlənməsi və təyin edilmiş pozuntuların aradan götürülməsi üzrə təkliflərin hazırlanması. Ötən illər üzrə aşkar edilmiş pozuntuların aradan qaldırılması və növbəti illərdə müvafiq neqativ halların baş verməməsi üçün tədbirlərin görülməsini təşkil edir.
- Büdcənin icrasının gedişi barədə məlumatlar mütəmadi Milli Məclisə təqdim olunması. Müvafiq hesabat ili üçün dövlət büdcəsindən ayrılmış vəsaitlərin istifadəsinin vəziyyəti barədə MM-ə təqdim olunan məlumatları nəzərdə tutur. Burada vəsaitlərin həm zaman, həm də təyinatı üzrə istifadəsi öz əksini tapır.
- Büdcə və büdcədənkənar fondların layihəsinin əsaslılığının təyin edilməsi.
- Maliyyə ekspertizası, maliyyə nəticələrinin qiymətləndirilməsi məqsədilə uyğun qərarların qəbul olunması. Maliyyə nəticələrinin qiymətləndirilməsi bazar iqtisadiyyatı şəraitində ən aktual məsələlərdən biri hesab edilir. Bu həm mikro səviyyədə, yəni, müəssisə səviyyəsində, həm də makro səviyyədə zəruri hal kimi ön plana çıxır. Ona görə də Hesablama Palatasının vəzifəli şəxsləri qarşısında əsas vəzifə kimi qoyulmuşdur.
- Bank hesablarına büdcə vəsaitlərinin daxil olmasının və hərəkətinin yoxlanması. Müvafiq bank hesablarına vəsaitlərin daxil olmasının və hərəkətinin yoxlanılması və yoxlanılmanın nəticələri əsasında müvafiq qərarların verilməsi, tədbirlərin görülməsi vacib bir məsələ kimi qarşıya qoyulmuşdur.
- Büdcə və büdcədənkənar fondların icrasına nəzarətin təşkili. Bilavasitə büdcə və büdcədənkənar fondlardan ayrılmış vəsaitlərin təyinatı üzrə sərf olunmasına nəzarəti nəzərdə tutur. (http://sai.gov.az:2020)

Hesablama Palatası dövlət büdcə-maliyyə nəzarəti orqanıdır və bununla yanaşı Milli Məclisə hesabat verir. Hesablama Palatasının — Hesablama Palatası barədə Azərbaycan Respublikasının qanunu ilə müəyyən olunmuş əsas funksiyaları vardır. Həmin funksiyaları nəzərdən keçirək:

Dövlət büdcəsinin və büdcədənkənar dövlət fondlarının (təsisatlarının) büdcələrinin layihələrinə rəy vermək Hesablama Palatasının başlıca funksiyalarından biridir. Odur ki, Hesablama Palatası dövlət büdcəsi və büdcədənkənar dövlət fondlarının (təsisatlarının) büdcələrinin gəlir və xərc maddələrinin həcmi, strukturu və təyinatı üzrə vaxtında icrasına nəzarəti gerçəkləçdirir. Eyni zamanda o, dövlət büdcəsinin icrası haqqında illik hesabata və uyğun qanun layihələrinə də rəy verir. Hesablama Palatası dövlət büdcəsindən maliyyələşdirmələrin təsdiq edilmiş dövlət büdcəsində təyin olunduğu kimi aparılmasını təhlil edir, ortaya çıxarılmış kənarlaşmaların aradan götürülməsi, həmçinin bütövlükdə büdcə prosesinin təkmilləşdirilməsi barədə təkliflər hazırlayır və Milli Məclisə təqdim edir.

Dövlət əmlakının idarə olunması, dövlət əmlakının və özəlləşdirilməsionun barəsində sərəncam verilməsindən əldə olunan vəsaitlərin dövlət büdcəsinə daxil edilməsiniə nəzarəti gerçəkləşdirməsi də onun funksiyalarından biridir.

Hesablama Palatası dövlət büdcəsi vəsaitlərinin xəzinə hesabına daxil olmasının və istifadəsinin təsdiq edilmiş dövlət büdcəsində müəyyən olunmuş göstəricilərə müvafiqliyini təhlil edir və bu barədə Milli Məclisə informasiya verir. Azərbaycan Respublikasını Mərkəzi Bankından və müvəkkil banklardan, kredit təşkilatlarından dövlət büdcəsinin vəsaitlərinin və büdcədənkənar dövlət fondlarının (təsisatlarının) vəsaitlərinin bank hesablarında hərəkəti haqqında məlumatlar alır, təhlil edir və Azərbaycan Respublikasının Milli Məclisinə təkliflər təqdim edir. Yuxarıda qeyd olunanlardan əlavə olaraq, Hesablama Palatası Azərbaycan Respublikasının Milli Məclisinə aparılmış nəzarət tədbirləri nəticəsində üzə çıxarılmış hüquq pozuntuları haqqında da informasiyaları təqdim edir.

Hesablama Palatası Azərbaycan Respublikasının Baş Prokurorluğuna dövlət əmlakının idarə olunmasına, onun haqqında sərəncam verilməsinə, dövlət

büdcəsinin icra edilməsinə, dövlət əmlakının özəlləşdirilməsindən əldə olunan vəsaitlərin dövlət büdcəsinə daxil edilməsinə, hüquqi şəxslərə və bələdiyyələrə dövlət büdcəsindən vəsaitlər ayrıldığı təqdirdə həmin vəsaitlərin təyinatı üzrə istifadə olunmasına nəzarət edilməsi müddətində cinayət əlamətləri olan hüquqpozmalar üzə çıxdıqda, təxirə salınmadan uyğun materialları göndərir.

HP dövlət büdcəsinin və icmal büdcəsinin gəlirlərinin və xərclərinin, həmçinin büdcədənkənar dövlət fondlarının auditini qanunvericiliyə müvafiq formada aparır. Hesablama Palatası bütün fəaliyyəti zamanı digər dövlət nəzarət orqanları ilə qarşılıqlı şəkildə fəaliyyət göstərir.

Hesabat ilində “COVID-19” pandemiyasının hər sahəyə olduğu kimi, maliyyə nəzarətinə də təsirlərinə baxmayaraq Hesablama Palatası tərəfindən həyata keçirilən maliyyə nəzarəti tədbirlərinin dövlət vəsaitləri üzrə əhatə dairəsi genişləndirilmişdir. Belə ki, 2020-ci ildə keçirilmiş nəzarət tədbirlərinin əhatə dairəsi həm məbləğ, həm də mənbələr baxımından əvvəlki illə müqayisədə çox olmuşdur.

Hesabat ilində audit formasında aparılmış nəzarət tədbirləri ilə ümumilikdə 9279,1 mln. manat məbləğində vəsait əhatə edilmişdir ki, həmin vəsaitin nəzərə çarpacaq hissəsi 2019-cu ilin payına düşmüşdür:

2017-ci ilədək 1.7%,2018-ci il 10.9%,2019-cu il 87.2%,2020-ci il 0.2%. (Azərbaycan Respublikasının 2020-ci il dövlət büdcəsi haqqında” Azərbaycan Respublikası Qanununda dəyişiklik edilməsi barədə” Hesablama Palatasının rəyi:2021)

**Diaqram 2. Audit formasında aparılmış nəzarət tədbirlərinin illər üzrə göstəriciləri**




**Mənbə:** "Azərbaycan Respublikasının 2020-ci il dövlət büdcəsi haqqında" Azərbaycan Respublikası Qanununda dəyişiklik edilməsi barədə" Hesablama Palatasının rəyi, 2021

Auditorlar Palatası Azərbaycan Respublikasında müstəqil maliyyə nəzarətini gerçəkləşdirən orqandır. Azərbaycan Respublikası Auditorlar Palatası 1994-cü il 16 sentyabr tarixli 882 nömrəli Azərbaycan Respublikası Qanununa əsasən qurulmuşdur. 1995-ci il 19 sentyabr tarixində Milli Məclisin qərarı ilə Auditorlar Palatası barədə Əsasnamə təsdiq olunmuşdur. Azərbaycan Respublikasının Auditorlar Palatası 1996-cı il 5 aprel tarixində öz fəaliyyətinə başladı. Azərbaycan Respublikası Auditorlar Palatasının təşkil edilmısində başlıca məqsədləri bunlardır:

- bu sahədə olan və Azərbaycan Respublikasında auditor xidmətinin inkişafına və təkmilləşdirilməsinə istiqamətlənmiş normativ aktların layihələrini, tədbirlər sistemini işləyib hazırlamaq;
- dövlətin, təsərrüfat subyektlərinin və auditorların (auditor təşkilatlarının) mənafelərini müdafiə etmək;
- öz fəaliyyətində bu Qanundan, digər qanunvericilik və normativ hüquqi aktlardan yaranan tələblərə auditorlar (auditorlar təşkilatları) tərəfindən riayət olunmasına nəzarət etmək;
- ölkə ərazisində auditor xidmətinin dövlət tənzimlənməsini təşkil etmək.

(www.audit.gov.az:2019)

MDB məkanında ilk dəfə olaraq Azərbaycanda 1999-cu il 26 iyun tarixində beynəlxalq Daxili Auditorlar İnstitutunun - Audit - Azərbaycan bölməsinin əsası qoyulmuşdur. Bu bölmə Auditorlar Palatasının müraciəti əsasında təşkil edilmişdir. Auditorlar Palatası Avropa Mühasiblər və Auditorlar Federasiyasına 2003-cü il 5 may tarixində tamhüquqlu üzv kimi qəbul edilmişdir.

Auditorlar Palatasının başlıca vəzifələri aşağıdakıları hesab olunur:

1. Respublikada auditor xidmətin işini təşkil etmək;
2. Bütün təsərrüfat subyektlərində maliyyə və mühasibat uçotunun düzgün aparılmasını təmin etmək;
3. Mövcud qanunvericiliyə müvafiq olaraq auditor xidmətinin inkişafı və fəaliyyətinin təkmilləşdirilməsi üçün tədbirlər görmək.

**Sxem 2. Azərbaycan Respublikası Auditorlar Palatasının sturukturu**




**Mənbə:** www.audit.gov.az – Azərbaycan Respublikasının Auditorlar Palatasının saytı.2019

Yuxarıda göstərdiyimiz sxemdə Auditorlar Palatasının strukturu əks olunmuşdur. Sxemdən əlavə qeyd etmək lazımdır ki, Auditorlar Palatasının Şurası yanında Komitələr də fəaliyyət göstərir. Bu komitələrə Auditorların Peşə Etikası, Keyfiyyətə nəzarət, Auditorların ixtisasartırma, Dövlət orqanları və ictimaiyyətlə əlaqələr üzrə, Qanunvericilik və hüquqi məsələlər üzrə, Beynəlxalq Standartlar üzrə, İnformasiya və mətbuat üzrə, Mübahisə və Apellyasiyalar üzrə, Üzvlük məsələləri

üzrə, Beynəlxalq əlaqələr üzrə, Gənclərlə iş üzrə, Milli auditə dəstək üzrə Komitələri nümunə göstərmək olar.

Auditorlar Palatasının struktur bölmələrinə Kadr hazırlığı, Keyfiyyətə nəzarət və hüquqi təminat idarəsi, akkreditasiya və beynəlxalq əlaqələr idarəsi, Maliyyə və təsərrüfat idarəsi daxildir.

Azərbaycan Respublikasının Maliyyə Nazirliyi İcra orqanları tərəfindən maliyyə nəzarəti sahəsində başlıca yeri tutur. Maliyyə Nazirliyinin struktur bölmələri istənilən formada maliyyə münasibətlərinə nəzarət edir. Maliyyə Nazirliyi ilk əvvəl dövlət büdcəsinin tərtib olunması prosesində maliyyə nəzarətini gerçəkləşdirir, büdcə vəsaitlərinin daxil edilməsi və xərclənməsinə, büdcədənkənar fondların vəsaitlərinə nəzarət edir, valyuta əməliyyatlarının həyata keçirilməsində nəzarətdə də fəaliyyət göstərir.

Maliyyə Nazirliyi eyni zamanda Azərbaycan Respublikası hökumətinin qərarı ilə ayrılmış dövlət investisiyalarının istifadəsinə və istiqamətinə nəzarəti də gerçəkləşdirir. (http://www.maliyye.gov.az:2020)

Azərbaycan Respublikasının Maliyyə Nazirliyi çərçivəsində operativ maliyyə nəzarətini Dövlət Maliyyə Nəzarəti Xidməti və Dövlət Xəzinədarlığı Agentliyi təşkil edir.

Azərbaycan Respublikası Prezidentinin "Azərbaycan Respublikası Maliyyə Nazirliyinin fəaliyyətinin təkmilləşdirilməsi tədbirləri haqqında" 09 fevral 2009-cu il tarixli 48 nömrəli Fərmanı ilə Azərbaycan Respublikası Maliyyə Nazirliyinin Dövlət Maliyyə Nəzarəti Xidməti təşkil edilmişdir.

Azərbaycan Respublikası Maliyyə Nazirliyinin Dövlət Maliyyə Nəzarəti Xidməti əsasən dövlət büdcəsindən ayrılmış vəsaitlərin təyinatı üzrə səmərəli xərclənməsi üzərində dövlət maliyyə nəzarətini aparan icra hakimiyyəti orqanıdır.

Dövlət Maliyyə Nəzarəti Xidməti büdcə vəsaitlərinin səmərəli və düzgün istifadə edilməsi üçün dövlət büdcəsinin, həmçinin məqsədli büdcə fondlarının vəsaitlərinin xərclənməsi, eləcə də büdcə təşkilatlarının büdcədənkənar əməliyyatlar üzrə vəsaitlərinin əldə olunması və xərclənməsi, dövlət zəmanəti ilə alınmış və

dövlət büdcəsinin vəsaitləri hesabına verilmiş kreditlərin xərclənməsi üzərində dövlət maliyyə nəzarətini reallaşdırır.

Azərbaycan Respublikasında dövlət maliyyə nəzarətinin aparılması işinə metodiki rəhbərlik edilməsi, bu sahədə mövcud olan problemləri və mənfi halları yaradan səbəblərin aradan götürülməsi, eləcə də qanunvericiliklə təyin edilmiş müxtəlik istiqamətlərdə fəaliyyət göstərilməsi də bu xidmətin başlıca fəaliyyət istiqamətlərinə daxildir.

Azərbaycan Respublikası Maliyyə Nazirliyinin Dövlət Maliyyə Nəzarəti Xidməti eyni zamanda dövlət büdcəsindən maliyyələşən və dövlət büdcəsindən dotasiya alan təşkilatlarda, Azərbaycan Respublikasının xarici dövlətlərdə və beynəlxalq təşkilatlarda fəaliyyət göstərən diplomatik xidmət orqanlarında dövlət maliyyə nəzarətini təmin etmək məqsədilə nəzarəti gerçəkləşdirən, dövlət büdcəsinin rayon və şəhərlər üzrə yerli gəlir və xərclərinin tərtibi və icrası üzrə rayon və şəhər maliyyə idarələrinin (şöbələrinin) işlərini və həmin şəhər və rayonların ərazilərində fəaliyyət göstərən büdcə təşkilatlarının büdcə və büdcədənkənar vəsaitlər üzrə xərc və gəlir smetalarının icralarını və maliyyə intizamına əməl olunmasını yoxlayır. Başqa sözlə desək, Dövlət Maliyyə Nəzarəti Xidməti hüquq-mühafizə orqanlarının tapşırığı ilə yoxlamalar həyata keçirir.

Maliyyə Nazirliyinin Dövlət Maliyyə Nəzarəti Xidməti maliyyə nəzarətini təftiş və yoxlamalar aparmaqla gerçəkləşdirir. Dövlət Maliyyə Nəzarəti Xidməti dövlət büdcəsi vəsaitlərinin düzgün, səmərəli və təyinatına müvafiq olaraq xərclənməsini təyin etmək məqsədilə respublikada büdcədən maliyyələşən bütün nazirlik, idarə və təşkilatlarda təftiş işinin aparılmasına cavabdehdir.

Azərbaycan Respublikası Maliyyə Nazirliyi yanında Baş Dövlət Xəzinədarlığı "Azərbaycan Respublikasında Dövlət Xəzinədarlığının yaradılması haqqında" Azərbaycan Respublikası Prezidentinin 1995-ci il 4 dekabr tarixli 398 saylı Fərmanına əsasən təşkil olunmuşdur. (http://www.maliyye.gov.az)

Azərbaycan Respublikası Prezidentinin "Azərbaycan Respublikası Maliyyə Nazirliyinin fəaliyyətinin təkmilləşdirilməsi tədbirləri haqqında" 09 fevral 2009-cu

il tarixli 48 nömrəli Fərmanı ilə isə qeyd edilən orqanın əsasında Azərbaycan Respublikası Maliyyə Nazirliyinin Dövlət Xəzinədarlığı Agentliyi təşkil edilmişdir.

Azərbaycan Respublikası Maliyyə Nazirliyinin Dövlət Xəzinədarlığı Agentliyi dövlət büdcəsinin kassa icrasını aparan və həmin maliyyə əməliyyatlarının uçotunu təşkil edən, büdcə xərcləri üzrə dövlətin adından büdcə təşkilatları qarşısında məsuliyyətləri qəbul edən, Azərbaycan Respublikasında dövlətə aid olan maliyyə vəsaitlərinin vahid mərkəzdən idarə olunması, bu vəsaitlərin daxil edilməsi və məqsədyönlü xərclənməsi sahəsində cari nəzarəti gerçəkləşdirən icra hakimiyyəti orqanıdır.

Vergi nəzarəti maliyyə nəzarəti çərçivəsində əsaslı yerə sahibdir. Vergi nəzarətinin fəaliyyəti maliyyə münasibətlərinin bir hissəsini təşkil edən vergi münasitbətləri və vergi kateqoriyasının obyektiv mövcudluğu ilə müşayiət edilir.

Azərbaycan Respublikasında vergi nəzarətinin forma və üsulları Azərbaycan Respublikasının "Vergi Məcəlləsi" ilə təyin olunur.

Vergilərin bütün səviyyəli büdcələrə tam və vaxtında toplanması, vergitutma obyektlərinin uçotu, eləcə də vergi qanunvericiliyinə riayət edilməsi üzərində nəzarət Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidmətinə həvalə olunmuşdur.

Vergi orqanları vergi nəzarətini vergitutma obyektlərinin və vergi ödəyicilərinin uçotunu aparmaqla, uçot və hesabat informasiyalarını tədqiq etməklə, vergi ödəyiciləri və digər şəxslər arasında sorğu təşkil etməklə, gəlir əldə etmək məqsədilə istifadə edilən binalara baxış keçirməklə və Vergi Məcəlləsi ilə müəyyən olunmuş digər formalarda reallaşdırırlar. (http://www.taxes.gov.az)

Vergi nəzarətinin aparılmasını təmin etmək üçün vergi ödəyicisi olan hüquqi şəxslər – olduqları (dövlət qeydiyyatı haqqında sənədlərdə qeyd edilmiş hüquqi ünvan), vergiyə cəlb edilən gəlirləri Azərbaycan mənbəyindən olan və bu gəlirlərdən ödəmə yerində vergi tutulmayan qeyri-rezidentlər Azərbaycan mənbəyindən gəlirin alındığı yer üzrə, fərdi sahibkarlar və Vergi Məcəlləsinin müddəalarına müvafiq olaraq bəyannamə verməli olan rezident fiziki şəxslər yaşadıqları yer üzrə vergi orqanlarında uçota alınırlar.

Kommersiya hüquqi şəxslərinə, eləcə də xarici kommersiya hüquqi şəxsin nümayəndəlik və filiallarına qanunvericiliyə uyğun formada dövlət qeydiyyatına alındığı vaxt vergi ödəyicisinin eyniləşdirmə nömrəsi verilir və həmin andan onlar vergi uçotuna alınmış hesab edilirlər. Bu vaxt verilən dövlət qeydiyyatı barədə şəhadətnamə Məcəllənin məqsədləri üçün vergi ödəyicisinin vergi uçotuna alınmasını təsdiqləyən şəhadətnamə hesab edilir.

Vergi yoxlamaları vergi ödəyicilərində onların fəaliyyətinə dövlət nəzarətinin əsas formasıdır. Vergi yoxlamaları vergi ödəyicilərinin ilkin mühasibat və digər sənədlərinə əsasən vergilərin vaxtında və düzgün hesablanması və büdcəyə ödənilməsini dəqiqləşdirmək məqsədilə aparılır.

Vergi yoxlamalarının başlıca məqsədi vergi ödəyicilərinin vergi hesabatlarının informasiyaları ilə vergi orqanlarının aldığı informasiyaların tutuşdurulub müqayisə edilməsidir.

Vergi yoxlamalarının obyektlərinə bunları daxil etmək olar: hesabatlar, mühasibat kitabları, əmrlər və işgüzar yazışmalar, pul sənədləri, bəyannamələr, planlar, smetalar, müqavilə və kontraktlar, vergi və digər məcburi ödənişlərin ödənilməsi ilə əlaqəli olan başqa sənədlər.

Vergi yoxlamalarının subyektlərinə isə aşağıdakılar daxildir:

- Qeyri-dövlət və qeyri-kommersiya idarə və təşkilatları;
- Yerli və xarici hüquqi şəxslərin iştirakı ilə qurulmuş birgə müəssisələr;
- Mülkiyyət formasından asılı olmayaraq kommersiya təşkilatları və müəssisələri;
- Azərbaycan Respublikasının vətəndaşları, xarici vətəndaşlar və vətəndaşlığı olmayan şəxslər.

Vergi yoxlaması vaxtı vergi ödəyicisinin əlavə şəxslərlə əlaqəli fəaliyyəti barədə informasiya alınmasına ehtiyac yaranarsa, vergi orqanı həmin şəxslərdən yoxlanılan vergi ödəyicisinin fəaliyyəti ilə əlaqəli olan sənədləri tələb edə bilər. Bu prosesi yerinə yetirmək üçün vergi orqanının qərarı olmalıdır. Vergi təcrübəsində buna qarşılıqlı yoxlama adı verilir. (Bağırov.D.A,2006:s.221)

Vergi yoxlamaları vaxtı vergi orqanları və onların vəzifəli şəxsləri düzgün qərarların qəbul olunması məqsədilə vacib olan bütün vəziyyətləri, həmçinin vergi ödəyicisi üçün səmərəli olan vəziyyətləri müəyyənləşdirməlidir.

Vergi yoxlamalarının aparılması yerinə görə, yoxlanılan məsələlərin həcminə, yoxlamaların təşkili formasına və aparılma qaydasına görə belə təsnifləşdirilir:

**Sxem 3. Vergi yoxlamalarının strukturu**

| VERGİ YOXLAMALARI | | | |
|---|---|---|---|
| ⬇ | ⬇ | ⬇ | ⬇ |
| Keçirilmə yerinə görə | Yoxlanılan məsələlərin həcminə görə | Yoxlamanın təşkili üsuluna görə | Yoxlamanın aparılma üsuluna görə |
| ❖ *Kameral* | ❖ *Kompleks* | ❖ *Növbəti* | ❖ *Başdan-başa* |
| ❖ *Səyyar* | ❖ *Seçmə* | ❖ *Növbədənkənar* | ❖ *Seçmə* |
| | ❖ *Məqsədli* | | |

**Mənbə:** taxes.gov.az-Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidmətinin saytı

Kameral yoxlamalar vergi orqanı tərəfindən yerlərə getmədən vergi orqanında olan, vergi ödəyicisi tərəfindən təqdim olunan vergi hesabatları, həmçinin vergilərin hesablanmasını və ödənilməsini özündə göstərən və vergi ödəyicisinin fəaliyyəti barədə vergi orqanında olan digər sənədlər əsasında həyata keçirilir. Bu vaxt hesabat formalarının doldurulmasının və vergilərin hesablanmasının düzgünlüyü və istənilən güzəştdən istifadə etmənin qanunauyğunluğu tədqiq edilir.

Kameral vergi yoxlamaları vergi ödəyiciləri tərəfindən vergilərin hesablanması və ödənilməsi üçün başlıca olan sənədlərin vergi orqanına təqdim olunduğu gündən 30 gün müddətində aparılır. (http://www.taxes.gov.az)

Kameral yoxlama aparmaq məqsədilə vergi ödəyicisindən təqdim edilmiş bəyannamə ilə əlaqəli sənədlərdə olan informasiyalar əsasında ziddiyyət və ya səhv

ortaya çıxarıldıqda vergi orqanı vergi ödəyicisindən əlavə məlumat, sənəd və izahat istəyə bilər.

Kameral yoxlama vaxtı vergi bəyannaməsində vergilərin düzgün hesablanmaması (vergi məbləğinin az və ya artıq göstərilməsi) ortaya çıxdıqda, vergi ödəyicisinə 5 gün müddətində uyğun icra hakimiyyəti orqanının təyin etdiyi qaydada vergilərin hesablanmasına aid bildiriş göndərilir. Bildirişdə hesablamanın səbəbləri və vergi ödəyicisinin qanunvericiliyə müvafiq olaraq şikayət etmək hüququ əks etdirilməlidir.

Kameral yoxlama aparmaq üçün vacib olan vergi bəyannaməsi üzrlü səbəb olmadan və təyin olunmuş vaxtlarda təqdim olunmadıqda, Vergi Məcəlləsinin 67-ci maddəsinə uyğun olaraq vergilər hesablanılır.

Kameral vergi yoxlaması vaxtı vergi orqanı qanunvericiliklə təyin edilmiş qaydalara əməl etmədikdə, vergi ödəyicisinin səyyar vergi yoxlaması aparılan vaxt vergi orqanının təklifinə görə həmin yoxlamanın keçirildiyi vaxta qədər yol verdiyi və kameral yoxlama vaxtı təyin edilə bilən səhvləri (həmçinin vergi məbləğinin düzgün hesablanmaması, vergi məbləğinin azaldılması və s.) 30 gün müddətində düzəltmək (aradan götürmək) hüququ vardır və o, həmin müddət sonlananadək, səbəb olduğu vergi qanunvericiliyinin pozulmasına görə (faizlərin ödənilməsi istisna ediməklə) öhdəlik daşımır.

Səyyar vergi yoxlaması vergi orqanlarının vəzifəli şəxsləri tərəfindən bilavasitə vergi ödəyicisinin yerləşdiyi yerdə aparılır.

Kameral yoxlamadan fərqli olaraq, səyyar vergi yoxlaması vergi orqanının qərarı ilə əlaqəli olaraq aparılır.

Səyyar vergi yoxlamasının başlıca vəzifələri bunlardır:

- vergilərin tam və vaxtında ödənilməsi, onların düzgün hesablanması məqsədilə yoxlanılan şəxsin maliyyə-təsərrüfat fəaliyyətinin hərtərəfli tədqiqi;
- təyin edilmiş vergi qanunvericiliyinin pozulması faktları üzrə dəlillərin toplanması və bu pozuntuların sənədlər əsasında göstərilməsinin təmin edilməsi;

- tədqiq edilən sənədlərin məzmunundakı uyğunsuzluqların, hesabatların və vergi bəyannamələrinin tərtib olunmasında, mühasibat uçotunun aparılması qaydalarında pozuntu faktlarının ortaya çıxarılması;
- ödəyicisinin vergitutma bazasını azaltması və ya vergini düzgün hesablanmaması nəticəsində qismən və ya tam ödənilməmiş vergilərin hesablanması;
- vergi müxtəlif növ vergilər üzrə vergitutma bazasının formalaşmasına aşkar edilmiş pozuntuların təsirinin təhlili;
- müəyyən edilmiş pozuntuların aradan qaldırılması üçün təkliflərin hazırlanması;
- vergi ödəyicisinin məsuliyyətə cəlb edilməsi. (Bağırov.D.A,2006)

Səyyar vergi yoxlaması növbəti və növbədənkənar olmaqla iki formada təşəkkül tapır. Növbəti səyyar vergi yoxlaması ildə bir dəfədən çox olmamaq şərtilə aparılır, çox hallarda bir ay davam edir. İstisna hallarda səyyar vergi yoxlaması 90 günə qədər çəkə bilər.

Növbəti səyyar vergi yoxlaması aparıldıqda vergi orqanı tərəfindən vergi ödəyicisinə yoxlama başlamazdan ən gec 15 gün əvvəl yazılı bildirişlə xəbər verilir.

Səyyar vergi yoxlamalarının keçirilməsi vaxtı vergi orqanının vəzifəli şəxsləri tərəfindən yoxlamaya vacib olan sənədlər təyin olumuş qaydada tələb olunnur. Həmin sənədlər 5 gün ərzində vergi orqanlarına təqdim olunmadıqda və ya həmin sənədlərin onda olmaması vergi ödəyicisi tərəfindən xəbər verildikdə, vergi ödəyicisi və vergi orqanının vəzifəli şəxsləri tərəfindən imzalanan müvafiq akt tərtib edilir. Vergi ödəyicisi bu aktı imzalamaqdan imtina etdiyi halda, bu haqda aktda qeyd olunur. Tərtib edilmiş aktın surəti vergi ödəyicisinə təqdim edilir.

Tələb edilən sənədləri və ya onların surətlərini səyyar vergi yoxlamasının keçirildiyi müddət ərzində digər mənbələrdən əldə etmək mümkün deyilsə, həmin akta görə vergi orqanlarının ödənilməli olan vergi məbləğlərini vergi ödəyicisi barədə özündə olan informasiyalar və ya analodiya üzrə müəyyənləşdirmək hüququna malikdir.

Vergi ödəyicisi tərəfindən sənədlərin təqdim olunmasından imtina olunduğu halda, vergi orqanının vəzifəli şəxsləri təyin edilmiş qaydada sənədlərin götürülməsini reallaşdıra bilərlər.

Səyyar vergi yoxlamalarının aparılması zamanı aşkara çıxan məsələlərin izah edilməsi məqsədilə xüsusi biliklər tələb edildiyi şəraitdə ekspert, vergi orqanlarının fəaliyyət dairəsinə aid olmayan sahələr üzrə xüsusi bilik və təcrübə tələb edildikdə isə mütəxəssis dəvət oluna bilər. Bu hərəkətlərin həyata keçirilməsi üçün vergi orqanlarının əsaslandırılmış qərarı tələb olunur.

Vergi nəzarəti tədbirlərinin keçirilməsi ilə əlaqədar aparılmış təhlillər göstərir ki, vergi ödəyicilərinin vergidən yayınması faktlarının aparıcı hissəsi mühasibat uçotunun aparılmaması və ya onun qanunvericiliklə təyin olunmuş qaydalara uyğun aparılmaması ilə əlaqədardır. Belə hallarda vergi orqanları vergi ödəyicisinin ödəməli olduğu vergiləri qanunvericiliklə təyin olunmuş xüsusi qaydalar əsasında təyin edirlər.

Vergi nəzarətinin təkmilləşdirilməsinin başlıca istiqamətlərindən biri də onun məhkəmə qaydasında və məhkəməyə qədər tənzimlənməsidir. Mübahisələrin məhkəməyə qədər həll edilməsi vergi nəzarəti sahəsində daha səmərəli tədbir hesab olunur. Son zamanlarda vergi orqanlarının səlahiyyətlərinin müəyyən çərçivəyə salınması məqsədilə vergilərin icbari qaydada alınması müddətlərinin məhdudlaşdırılması və ya maliyyə sanksiyasının tətbiqi, vergilərin yenidən hesablanması müddətlərinin azaldılması və s. kimi məhdudiyyətlər qanunvericiliklə təyin edilmişdir. Bütün bunlar isə vergilərin itirilməsi risklərinin çoxalmasına gətirib çıxarır.

Qanunvericilikdə ziddiyyətli və məqamlar mübahisəli yarandıqda məhkəmə qərarı demək olae ki, vergi ödəyicisinin xeyrinə nəticələnir. Odur ki, vergi orqanlarının nəzarət tədbirləri nəticəsində yerinə yetirdikləri sanksiyalar, əlavə hesablamalar ildən ilə  artır. Həmçinin, vergi orqanları tərəfindən vergi nəzarəti tədbirlərinin qanunvericiliklə təyin olunmuş prosedurlarının gözlənilməməsi, vergi hüquqpozmaları faktlarının tam şəkildə əsaslandırılmaması və nəzarətin keyfiyyətinin yaxşı olmaması vergi ödəyicilərinin şikayətləri əsasında qərarın

onların xeyrinə çıxarılmasına gətirib çıxarır. Bu cür problemlərin həlli üçün vergi orqanları qarşısında duran başlıca vəzifələrdən biri vergi nəzarətinin səmərəliliyinin çoxaldılmasıdır.

Vergi nəzarətinin səmərəliliyinin artırılması bu nəzarəti birbaşa yerinə yetirən struktur bölmələrin fəaliyyətinin düzgün təşkilindən əsaslı şəkildə asılıdır. Eyni zamanda, nəzarətin səmərəliliyinin artırılmasında vergi ödəyicilərinin və vergitutma obyektlərinin uçotu ilə əlaqəli işlərin də təkmilləşdirilməsi vacib rol oynayır. Vergi orqanlarının işinin kəmiyyət və keyfiyyət göstəricilərinin ətraflı təhlili edilməsi və onun nəticəsinə müvafiq olaraq vergi inzibatçılığının yaradılması səmərəli vergi nəzarətinin təşkil olunmasının vacib şərtlərindən biridir. Vergi nəzarətinin təşkil edilməsi və keçirilməsi məsələlərini tənzimləyən qanunvericilik bazasının təkmilləşdirilməsi də bu məsələdə vacib rol oynayan edən amillərdəndir. (http://www.taxes.gov.az:2020)

Bütün bunlar bizi o nəticəyə gətirib çıxarır ki, vergi nəzarətinin səmərəliliyinin artırılmasının başlıca yollarından biri vergi nəzarətinin aparılması prosedurunun təkmilləşdirilməsidir. Bu sahədə görülməsi əhəmiyyətli olan tədbirlərə vergi orqanlarının fəaliyyətinin obyektiv qiymətləndirilməsi sisteminin yaradılması, vergi yoxlamaları ilə əhatə olunacaq vergi ödəyicilərinin dairəsinin düzgün təyin edilməsi, vergi nəzarətinin öncül və modern metodlarının tətbiqi aiddir. Vergi nəzarətinin bütün elementlərinin normallaşdırılması bu tədbirlərin sistemli qaydada və  eyni zamanda görüldüyü şəraitdə mümkün olur. Əlbəttə ki, vergi nəzarətinin təkmilləşdirilməsinə istiqamətlənən tədbirlər yalnızca qeyd olunanlarla bitmir. Vergi sistemi inkişaf yolu keçdikcə onun səmərəliliyinin artırılmasının yeni istiqamətləri də araşdırılıb tapılmalıdır.

# III FƏSİL. AZƏRBAYCAN RESPUBLİKASINDA MALİYYƏ SİSTEMİNİN TƏNZİMLƏNMƏSİNDƏ MALİYYƏ NƏZARƏTİNİN ROLUNUN TƏKMİLLƏŞDİRİLMƏSİ İSTİQAMƏTLƏRİ.

## 3.1 Maliyyə sisteminin tənzimlənməsində maliyyə nəzarətinin rolunun artırılması ilə bağlı beynəlxalq təcrübənin Azərbaycanda tətbiqi imkanları.

Respublikamızda məhz, dövlət idarə strukturlarına daxil edilməyən və fərqli mülkiyyət formalarına əsaslanan, iqtisadi cəhətdən müstəqil olan müəssisələrin formalaşdırılması beynəlxalq təcrübədə çoxdan və əhatəli şəkildə istifadə olunan qeyri-dövlət maliyyə nəzarətinin təşkili üçün obyektiv şərait yaradır.

Bazar iqtisadiyyatı dövründə idarə (metodunun) nəzarəti daxilində təkcə dövlət mülkiyyətində olan müəssisələr və büdcə təşkilatları qalacaqdır və yeni mülkiyyət formaları inkişaf etdikcə, müəssisələrin müstəqilliyi artdıqca onun fəaliyyəti minimuma enəcək və qeyri-dövlət maliyyə nəzarəti ilə əvəz olunacaqdır.

Bazar iqtisadiyyatının formalaşdığı xarici ölkələrdə strateji və cari nəzarət bu maliyyənin strateji idarə olunmasının əsası kimi nəzərdən keçirilir. Bu anlamda bazar iqtisadiyyatı dövründə planlaşdırma və nəzarət arasındakı fərqə baxaq.

ABŞ baş mütəxəssisləri düşünür ki, strateji idarəetmə sahəsində nəzarət elə bir fəaliyyətdir ki, onun köməyi vasitəsi ilə kooperasiya rəhbərliyi ümumi resursların səmərəli,təşkilatın ümumi məqsədlərinə uyğun şəkildə və qənaətlə əldə olunması və istifadəsinə əmin olmalıdır.

Öz sırasında maliyyə nəzarəti, onun (nəzarətin) maliyyə imkanlarının yaradılması, bölüşdürülməsi və gərçəkləşdirilməsi ilə əlaqədar olaraq, maliyyə sahəsindəki strateji və cari problemlərin həlli ilə bağlı olan tərəflərdən birinin özündə əks etdirir. Maliyyənin strateji idarəedilməsinin altsistemi daxilində maliyyə nəzarətinin gerçəkləşdirilməsi imkanı müəssisələrin maliyyə imkanları və funksional büdcələri ilə təmin olunur. Burada göstərilən  göstəricilər və nisbətlər maliyyə sahəsində strateji və cari məsələlərin, həmçinin onların effektiv formada həlli üçün zəruri olan şərtlərin spesifik xarakteristikası kimi fəaliyyət göstərir. Maliyyə nəzarətinin gerçəkləşdirilməsi, funksional büdcələrin və maliyyə planlarının həyata keçirilmə nəticələrinin icrasının nəticələrinin həmin sənədlərdə göstərilən tələblərlə müqayisə olunması yolu ilə tənqidi formada qiymətləndirilməsini və həqiqi olmayan kənarlaşmalar aşkar olunduqda təshihedici tədbirlərin həyata keçirilməsini nəzərdə tutur.

Strateji və cari maliyyə nəzarəti arasındakı nisbət onların maliyyənin strateji idarəedilməsinin altsistemindəki rolu ilə müəyyən edilir. Belə ki, starteji maliyyə nəzarəti tamamilə müəssisə tərəfindən maliyyə strategiyasının gözlənilməsinə yönəltmişdir və onun  obyektlərinə strateji büdcələrin və perspektiv maliyyə planlarının həyata keçirilməsinin nəticələri aiddir.

Bir qayda olaraq cari maliyyə nəzarəti, aralıq nəticələrin və müəssisələrin maliyyə fəaliyyətinin proqram istiqamətlərinin uzlaşdırılmasının təmin edilməsi yerli məsələlərini təhlil edir.

Maliyyə sahəsində strateji məsələlərin uğurla həll olunması bir çox tərəfdən cari maliyyə nəzarətinin səmərəli nəticələri ilə müəyyən edilir. Bununla bağlı olaraq

onun gerçəkləşdirilməsi adekvat şərtlərin təmin olunması və cari büdcələrdə müəyyən edilən nəzarət maliyyə göstəricilərinin seçilməsi vacib əhəmiyyət kəsb edir.

1991-ci ildən, yəni dövlət müstəqilliyini əldə etdikdən, demokratik inkişaf yoluna ayaq basdıqdan sonra respublikamızda həyata keçirilən radikal iqtisadi islahatlar, idarəçilik sisteminin üst səviyyədə təkmilləşdirilməsi, xüsusi xəzinədarlıq strukturunun yaranması komitə, nazirlik, habelə digər mərkəzi icra hakimiyyəti orqanlarında cari nəzarət, təftiş qurumlarının ləğvi, dövlət orqanlarına öz səlahiyyətlərinə aid edilməyən yoxlamaların aparılmasının məhdudlaşdırılması, həmçinin bu istiqamətdə ardıcıl olaraq fərqli məqsədyönlü tədbirlərin reallaşdırılması ölkəmizdə beynəlxalq səviyyəli standartlara uyğun olan maliyyə sferasına nəzarət strukturunun yaradılmasını önəmli etmişdir. Bazar iqtisadiyyatının formalaşdığı bir vəziyyətdə maliyyə nəzarətinin təkmilləşdirilməsi dedikdə, ilkin olaraq, auditor xidmətinin modern mexanizmasının fəaliyyət göstərməsini,təşkilini eyni zamanda nəzarət sisteminin əlaqələndirilməsini, təsir qüvvəsinin çoxaldılmasını, habelə digər məsələləri diqqətdə saxlanılır. Ancaq respublikamızda auditin reallaşdırılması və təşkili sahəsində önəmli işlər görülməsinə və bəzi problemlərin həll olunmasına ciddi ehtiyyac vardır. (Zeynalov.V.Z,2010:s.59)

İnkişaf Etmiş Ölkələrin təcrübəsi bir daha sübut edir ki, burada icra olunan bütün planlar toplusu auditor nəzarətindən keçməklə həyati vəsiqə əldə etmiş olur. Qeyd edilən ölkələrdə, bir qayda olaraq, icrası diqqətdə saxlanılan dövlətin proqramları üzrə layihələrdə müvafiq məqsədlə ayrılan vəsaitin ümumi 1-2 faizi nəzarət tədbirlərinin icrasına sərf edilir.Ölkəmizin müəssisə və idarələrində icra edilən təsərrüfat əməliyyatlarının qanunvericiliyin tələblərinə aid olması, dəqiqliyin və səffaflığın təmin olunması, sərbəst nəzarət strukturu olan auditin hər tərəfli və geniş tətbiq edilməsi əhəmiyyətli rol oynayır. Azərbaycan Respublikasının “Audit xidməti haqqında” Qanununda ölkəmizdə fəaliyyət göstərən şirkət və qurumların illik auditor yoxlamasından keçməsinə dair qanun müəyyənləşdirilmişdir. Müvafiq qanunda daxili audit quruluşunun həyata keçirilməsi prinsipləri, vacib müəssisədaxili iqtisadi nəzarət forması olması müəyyən edilməmişdir.

Göstərilənləri nəzərə alaraq,ölkəmizdə bazar iqtisadiyyatı münasibətlərinin önəmli formada böyüməsi, iqtisadi islahatların gerçəkləşdirildiyi dövrdə iqtisadi nəzarətin, bu əsasda audit nəzarətinin bütövlükdə inkişaf etməsi və genişlənməsini çox önəmli amil olaraq qeyd etmək olar. Maliyyə nəzarətinin gələcəkdə inkişaf etdirilməsi, onun səmərəliliyinin xeyli dərəcədə gücləndirilməsi dövlətin qanunvericilik bazasının, zamanın nəbzinə uyğun formada təkmilləşdirilməsindən çox asılıdır. Maliyyə nəzarəti fəaliyyətini tənzimləyən normativ hüquqi baza bu nəzarəti demokratik dövlətə aid olan, keyfiyyət baxımından müasir mərhələyə keçirməyi təmin etməyi bacarmalıdır.

Maliyyə nəzarəti üzrə qanun layihəsi, şəffaflığın təmin olunması, korrupsiyaya qarşı mübarizədə strategiya layihələrinin, həmçinin digər məsələlər barədə normativ sənədlərin yaradılması, qəbulu ölkəmiz tərəfindən maliyyə nəzarətini tənzimləyən normativ hüquqi bazanın yaradılmasına, şəffaflığın təmin edilməsinə vacib əhəmiyyət verildiyini göstərmiş olur. Bu sahədə öncül bir təcrübəyə sahib olan Avropa ölkələrinin təcrübəsi qavranılmış, qanunvericilik aktlarının tətbiqi qaydaları, işləmə mexanizmləri müəyyən olunmuşdur. Bundan əlavə, qanun layihələrində, ümumilikdə Avropa ölkələrinin təcrübəsinin tətbiqinin mümkünsüz olması, ölkəmizin reallıqları da göz önündə saxlanılmışdır. Qeyd etməliyik ki, maliyyə üzrə fəaliyyətin səmərəliliyinin, qanuniliyinin, məqsədəmüvafiqliyinin təmini üçün maliyyə nəzarəti sferasında həyata keçirilən iqtisadi islahatlar, habelə dövlət quruculuğu üzrə müvafiq dəyişikliklər həyata keçirilmişdir. Mövcud nəzarət orqanları ləğv edilmiş, həmçinin bazar iqtisadiyyatı tələblərini özündə ehtiva edən yeni qurumların fəaliyyət sahələri təşəkkül tapmış və dövlət maliyyə nəzarəti gücləndirilmişdir. Bu orqanlara müstəqil auditor birliklərini və digərlərini misal göstərmək olar. (Namazova.C.B,2015)

Fikrimcə, çoxşaxəli sistemi özündə toplayan maliyyə nəzarəti sahəsinin fərdi istiqamətlərini yüksək səviyyədə təkmilləşdirməkdən öncə respublikamızda mövcud maliyyə nəzarəti üzrə vahid konsepsiyanın hazırlanmasını, müvafiq konsepsiyada maliyyə nəzarəti tədbirlərinin müstəqilliyinin, nəticəliliyinin, şəffaflığının, obyektivliyinin, aşkarlığının, səriştəliliyinin, təsirliliyinin, iqtisadi inkişafa,

həmçinin təhlükəsizliyə təminatın vacib istiqamətləri, maliyyə nəzarətinin hüdudları, normaları, metodları, nəzarətedici qurumların hüquqi statusu, maliyyə üzrə nəzarəti həyata keçirən qurumlar ilə dövlətin digər idarəetmə qurumlarının əlaqələrinin yüksək səviyyədə təkmilləşdirilməsi, maliyyə nəzarəti üzrə maraq toqquşmalarının məhdudlaşdırılması, habelə nəzarətedici qurumların fəaliyyətinin müvafiq iqtisadi mexanizmləri müəyyən olunmuşdur.

Zənnimcə, maliyyə nəzarəti sisteminin beynəlxalq təcrübəyə uyğunlaşdırılması yönündə aşağıda göstərilən tədbirlərin görülməsi də məqsədəuygun olardı:

- Maliyyə nəzarəti üzrə tədbirlərdə yüksək effektivlik göstəricilərinin hazırlanması və tətbiqi;
- Maliyyə nəzarətində bütövlüyü təmin etmək məqsədi ilə mütərəqqi seçmə prosedurlarından istifadə edilməsi;
- Maliyyə nəzarətinin keyfiyyətinin və təsirliyinin artırılması;
- Nəticəyə yönəlmiş büdcələşdirmə, səmərəlilik auditinin böyüdülməsi;
- Maliyyə üzrə nəzarətedici orqanlarının müvafiq koordinasiyalı, birləşdirilmiş Şuranın ortaya çıxarılması;
- Nəzarət qurumlarınn hesabatlığının yüksək səviyyədə təkmilləşdirilməsi;
- Maliyyə nəzarəti üzrə informasiya texnologiyasının tətbiqi, elektron formada olan nəzarət sisteminin qurulmasıı;
- Müstəqil (kənar) auditorların dövlət büdcəsi maliyyə nəzarətinə cəlb edilməsi;
- Maliyyə nəzarəti statistikasının qurulması;
- Nəzarət qurumlarının fəaliyyətinin rabitəli əlaqələndirilməsi və sinxronlaşdırılması;
- Peşə etikası məcəlləsinin, peşə fəaliyyəti standartlarının təcrübədə tətbiqi üzrə metodik tövsiyələrin yaradılması, onlara riayət olunmasının təmin edilməsi;

- Dövlət orqanlarında daxili nəzarət fəaliyyəti istiqamətlərinin daha da optimallaşdırılması;
- Kadr hazırlığı sisteminin yaradılması;
- Beynəlxalq praktikanın geniş surətdə dərk edilməsi və müvafiq qaydaların tətbiq olunması. (Bağırov.D.A,Həsənli.M.X,2011:s.180)

Beləliklə, respublikamızda maliyyə nəzarətinin tədbiqi maliyyə nəzarəti sisteminin müasir vəziyyətinin tələblərinə uyğun təşkil olunması, təkmilləşdirilməsinin önəmliliyini göstərir. İqtisadi islahatların müasir mərhələsinə qədəm qoymuş ölkəmizdə dövlət maliyyə nəzarətinin beynəlxalq tələblər səviyyəsində reallaşdırılması nəticə etibariylə dövlətin maliyyə siyasətinin müvəfəqiyyətlə həyata keçirilməsinə, maliyyə vəsaitlərinin vaxtında dövlətin bazasına daxil olunmasına, bu isə sosial və iqtisadi dirçəlişə gətirib çıxaracaqdır.

2020-ci il üzrə Hesablama Palatasının beynəlxalq fəaliyyətinə baxsaq,ümumi olaraq, Azərbaycan Respublikası Hesablama Palatasının beynəlxalq fəaliyyəti INTOSAI, EUROSAI, ECOSAI, ASOSAI, həmçinin başqa beynəlxalq audit təşkilatlarına üzv olmaqla çoxtərəfli və bir çox ölkələrlə qarşılıqlı münasibətlərin gücləndirilməsi istiqamətində ikitərəfli müstəvidə həyata keçirilir. 2020-ci ildə sürətlə yayılaraq dünya əhalisinə, eləcə də iqtisadiyyata müvafiq səviyyələrdə öz təsirini göstərmiş COVİD-19 pandemiyasının yayılması nəticəsində dünya səviyyəsində sərt karantin rejimi qaydaları tətbiq edilmiş və edilməkdədir. Bu hal beynəlxalq ictimaiyyətdə və beynəlxalq sferada qurulmuş fəaliyyətlərə də öz təsirini göstərmişdir. Bir sıra beynəlxalq konfranslar, tədbirlər, seminar və təlimlərin onlayn qaydada keçirilməsinə üstünlük verilməklə beynəlxalq fəaliyyətin təmin edilməsinə bütün dünya ictimaiyyəti öz gücünü ortaya qoymuşdur.Göstərilən şərait çərçivəsində 2020-ci il üzrə görülmüş fəaliyyətlər beynəlxalq təşkilatlar çərçivəsində bir çox beynəlxalq konfransların videoformatda keçirilməsi, həmçinin Palata əməkdaşlarının bir sıra önəmli onlayn təlim və tədbirlərdə iştirakı ilə səciyyələnmişdir. Bundan başqa, Hesablama Palatası Avropa İttifaqı və Almaniya Beynəlxalq Əməkdaşlıq Cəmiyyəti kimi digər beynəlxalq təşkilatların köməyi ilə bir sıra vacib layihələrin icrasını həyata keçirmiş və yeni layihələrin icrasına

başlamaqla yeni əlaqələrin və əməkdaşlıq sahələrinin yaradılmasındamühüm rol oynamışdır.

2020-ci ilin son rübündə keçirilmiş beynəlxalq görüşlərdə Hesablama Palatası tərəfindən Azərbaycan Respublikasının ədalətin bərpa olunması və uzun müddətdir işğal altında olan ərazilərimizin azad olunması uğrunda apardığı 44 günlük şanlı Vətən müharibəsi haqqında məlumatlar verilmiş, həmin dövrdə beynəlxalq hüquqa zidd olaraq ermənistan rəhbərliyinin göstərişi ilə erməni silahlı qüvvələri tərəfindən münaqişə bölgəsindən kilometrlərlə uzaqda olan məntəqələrin və dinc əhalinin qadağan olunmuş silahlarla zərbəyə məruz qoymasına dair faktlar nəzərə çatdırılmışdır. ("Azərbaycan Respublikasının 2020-ci il dövlət büdcəsi haqqında" Azərbaycan Respublikası Qanununda dəyişiklik edilməsi barədə" Hesablama Palatasının rəyi,2021)

İndiki dövrdə Azərbaycanda maliyyə nəzarətini dünyanın digər ölkələri ilə təhlilini aparsaq, müəyyən oxşar və fərqli cəhətlərə rast gəlmək mümkündür. Bu həm maliyyə nəzarətini aparan orqanlar səviyyəsində, həm də aparılma formalarına görə fərqlilik və oxşarlıq təşkil edir.

Rusiyada dövlət maliyyə nəzarətini Hesablama Palatası, Maliyyə nazirliyi və Rusiya Federasiyasının Federal xəzinədarlığı həyata keçirir. Rusiyada büdcə məcəlləsi qəbul edilib. Maliyyə nəzarəti auditorları mütəxəssislər, mühasiblər, üçün büdcə məcəlləsi əhəmiyyəti daha böyükdür.Çünki, o bilavasitə büdcə proseslərini həyata keçirir.Büdcə sisteminin müxtəlif səviyyəli büdcələrin qarşılıqlı münasibətlərinin tənzimlənməsi qaydasını büdcə qanunvericiliyi həyata keçirir. Habelə bu məcəllə büdcə qanunvericiliyinin pozulmasına görə məsuliyyət dərəcəsini, büdcə prosesinin əsaslarını təyin edir, Rusiya Federasiyası fərdlərinin fəaliyyətinin hüquqi əsasları, hüquqi münasibətləri, Rusiya Federasiyasındakı hüquqi vəziyyəti bu Məcəllənin ümumi prinsipləri ilə müəyyən olunur.

Rusiya Federasiyasının Maliyyə Nazirliyinin və Federal xəzinədarlığının nəzarət funksiyası daha dəqiq formalaşmışdır. Rusiya Maliyyə Nazirliyi büdcə icrasına nəzarəti reallaşdırır. Əgər Rusiya Federasiyasının subyekti onun ümumi büdcə xərclərinin 50%-i miqdarında yardım alırsa, bu zaman büdcənin məcburi şəkildə təftişi aparılır.

Rusiya Federasiyasının Hesablama Palatası, Rusiya Federasiyası Federal Məclisi tərəfindən həyata keçirilən və ona hesabat verən, daima fəaliyyət göstərən dövlət maliyyə nəzarəti orqanıdır. Hesablama Palatasının vəzifələri bunlardır:

- Federal büdcənin və büdcədənkənar fondların büdcələrinin gəlir və xərc maddələrinin qiymətləndirilməsi;
- Federal büdcənin və büdcədənkənar fondların büdcələrinin gəlir və xərclərinin strukturu, həcmi və təyinatı üzrə zamanında icrasına nəzarətin təşkili və aparılması;
- Dövlət vəsaiti gəlirlərinin və dövlət mülkiyyətindən istifadənin səmərəliliyi və optimallığı;
- Qanun layihələrinin, həmçinin dövlət hakimiyyəti orqanlarının normativ hüquqi normaları ilə nəzərdə tutulan xərclərin maliyyə ekspertizası;
- Federal büdcənin və büdcədənkənar fondların büdcələrinin təhlili və təkliflərin yaradılması, həmçinin ümumilikdə büdcə prosesinin təkmilləşdirilməsi üçün kənarlaşmalar aşkar olunması, onların aradan qaldırılması istiqamətində tədbirlərin həyata keçirilməsi;
- Banklarda və maliyyə-kredit müəssisələrində, federal büdcəsinin və büdcədənkənar fondların vəsaitlərinin zamanında ödənilməsinə nəzarət etmək. (Брайчева Т.В,2001)

Rusiya Federasiyasında müasir zamanda aparılan maliyyə nəzarəti haqqında qeyd olunan nüanslar Azərbaycan maliyyə nəzarəti sistemində də bu və ya digər dərəcədə öz təsirini göstərir. Bunun bir çox özünəməxsus formaları vardır.Birincisi, Azərbaycan XX əsrin 20-ci illərindən 90-cı illərə kimi 70 ilə yaxın bir müddətdə SSRİ-in tərkibində olmuşdur. Bu müddətdə SSRİ tərkibində olan bütün ölkələrdə maliyyə nəzarəti sistemi ümumdövlət maliyyə nəzarətinə uyğun təşkil olunurdu və birbaşa yuxarı orqanların göstərişləri ilə reallaşdırılırdı. Bundan başqa, Rusiya Federasiyası ilə Azərbaycan Respublikasının qonşuluq mövqeyi və 2 ölkə arasında olan yaxın iqtisadi əlaqələr bu sistemin formalaşmasında öz əksini tapmışdır.

İnkişaf etmiş ölkələrin bir çoxunda maliyyə nəzarəti fərqli aspektlərdə inkişaf edir. Habelə həmin ölkələrdə nəzarət orqanları da fəaliyyət sferasına görə fərqlənir.

Böyük Britaniyada nəzarət-yoxlama mexanizminin işini tənzimləyən vahid ümumi qanunvericilik mövcud deyil. Bütün fəaliyyətlərdə administrativ fəaliyyətə ümumi nəzarəti qanunverici orqanlar (parlament, yerli seçki orqanları), məhkəmə orqanları, ictimai təşkilatlar gerçəkləşdirir.

Böyük Britaniyanın milli təftiş şurası maliyyə nəzarətinin gerçələşdirilməsində spesifik rol oynayır. Qanunvericiliyə görə, milli təftiş şurası dövlət aparatının bir parçası deyil və bilavasitə parlamentə aiddir.

Dünyanın öncül ölkələrində olduğu kimi respublikamızda da maliyyə nəzarətinin reallaşdırılmasında ölkənin Mərkəzi Bankı da bu və ya digər dərəcədə xüsusi rol oynayır. Belə ki, ölkədə pul siyasətinin formalaşmasında,reallaşdırılmasında bilavasitə Mərkəzi Bank xüsusi hüquqa malikdir.Hüquqi və fiziki şəxslərin, iqtisadiyyatın ayrı-ayrı subyektlərinin nağd pula ola tələbatının qiymətləndirilməsi, onların nağd pula olan ehtiyaclarının ödənilməsi Mərkəzi Bank tərəfindən reallaşdırılır. Pul emissiyası hüququ yalnız Mərkəzi Banka məxsusdur. Tədavüldə olan pul kütləsinə nəzarəti Mərkəzi Bank idarə edir. Bundan savayı ayrı-ayrı kommersiya banklarının fəaliyyətinə, onlar tərəfindən müəyyənləşdirilmiş məcmu kapitalın ən kiçik səviyyəsinə nail olunmasına nəzarəti hüququ da Mərkəzi Banka aiddir.

Dünyanın bir çox ölkələrində aparılan maliyyə nəzarəti, yoxlamalar haqqında apardığımız təhlillərdən görünür ki, maliyyə nəzarəti sferası növündən, aparılması formasından, subyektlərin səlahiyyət həcmindən, məsuliyyət dərəcəsindən asılı olmayaraq müəyyən məqsədlərə çatmağa xidmət edir. Bu məqsədləri aşağıdakı kimi toplamaq olar:

- Dövlət büdcəsindən ayrılmış vəsaitlərin təyinatı üzrə istifadə edilməsinə, gərəksiz, səmərəsiz xərclərinin azaldılmasına müvəffəq olmaq;
- Ayrı-ayrı təsərrüfat subyektlərinin maliyyə fəaliyyətində yüksək səviyyədə dəqiqlik və düzgünlüyün təmin edilməsinə nail olmaq;

- Dövlət büdcəsindən ayrılmış vəsaitlərin effektiv istifadəsinə nail olmaq;
- Büdcə təşkilatlarının büdcədənkənar vəsaitlərinin, dövlət zəmanəti ilə alınmış kreditlərin məqsədli və effektiv xərclənməsinə müvəffəq olmaq.

## 3.2 Respublikamızda maliyyə sisteminin tənzimlənməsində nəzarət orqanlarının rolunun təkmilləşdirilməsi.

Respublikamızda müstəqil dövlət kimi maliyyə nəzarətinin inkişafı ötən əsrin 90-cı illərinə təsadüf edir. Odur ki, SSRİ-i tərkibində 70 ilə yaxın bir müddətdə olan ölkəmizdə bütün sahələrdə olduğu kimi maliyyə sahəsi də ümumdövlət sisteminə uyğun təşkil olunurdu. Planlı iqtisadiyyatın mövcud olduğu bir şəraitində maliyyə nəzarəti də dövlət tərəfindən həyata keçirilirdi, müstəqil nəzarət anlayışı mövcud deyildi. Nəzarətedici hakimiyyət və səlahiyyət tam şəkildə dövlətin, mərkəzin əlində idi.

Dövlətimiz XX əsrin 90-cı illərinin əvvəlində müstəqillik əldə etdikdən sonra bütün sahələrdə olduğu kimi maliyyə sahəsində də ciddi islahatlar və dəyişikliklər edilməsi zəruri idi. Dövlət idarəetmə prinsiplərinin və eyni zamanda iqtisadi vəziyyətin dəyişilməsinin dövlət maliyyə nəzarəti sisteminin yenidən qurulmasına və təkmilləşdirilməsinə zərurət yaratmışdı. Bazar münasibətlərinə uyğun olaraq, müvafiq dövlət nəzarəti mexanizminin qurulması, tətbiq edilməsi vacib əhəmiyyət kəsb edən məsələlərdən biri idi. Ümummilli liderimiz Heydər Əliyevin dövlət maliyyə nəzarəti sahəsində gerçəkləşdirdiyi çox dəyərli və vacib islahatlardan biri bu sahədə qayda– qanunun bərpa olunması, nəzarət funksiyalarını yerinə yetirən dövlət orqanlarının funksiyalarının təyin olunması, bununla yanaşı özbaşınalığın və yersiz yoxlamaların qarşısının alınması idi.

Keçən əsrin 90-cı illərinin sonlarında ölkə iqtisadiyyatında keçid dövrünə təsadüf etdiyindən dövlət orqanları tərəfindən gerçəkləşdiriləm yoxlama və nəzarət mexanizmi real tələblərə müvafiq təkmilləşdirilmə prosesi sona çatmamışdı. Bu

səbəblə də müasir tələblərə müvafiq olaraq mümkün olan tədbirlərin həyata keçirilməsinə böyük ehtiyac yaranmışdı. Dünya praktikasında vəsaitlərin məqsədyönlü və effektiv şəkildə istifadə olunması sahəsində ali dövlət maliyyə nəzarəti orqanlarının əhəmiyətli yer tutduğunu nəzərə alsaq, icra hakimiyyəti orqanları ilə bağlı olmayan və qanunvericilik hakimiyyətini reallaşdıran orqana hesabat verən xüsusi bir qurumun yaradılması müstəsna idi. Burada başlıca məqsəd modern dövrün tələblərinə cavab verə bilən dövlət maliyyə nəzarəti sisteminin qurulması və möhkəmləndirilməsi idi. Digər vacib məqsəd isə həm daxili, həm də kənar maliyyə nəzarətinin imkanlarından maksimum dərəcədə istifadə etməklə, güclü dövlət nəzarət sisteminin qurulmasına nail olmaq idi. Daxili maliyyə nəzarəti özlüyündə müvafiq icra hakimiyyəti orqanları tərəfindən reallaşdırılan, xarici maliyyə nəzarəti isə cəmiyyət qarşısında öz öhdəliklərini ən səmərəli şəkildə yerinə yetirilməsi məqsədilə ali audit qurumu tərəfindən aparılan nəzarət nəzərdə tutulur.

Hal-hazırda dövlət maliyyə nəzarətini gerçəkləşdirən orqanlar respublika qanunverici orqanları, maliyyə və vergi orqanları və digər idarəetmə orqanlarıdır.

Tədqiqatın gedişi prosesində əldə olunan nəticələrə əsasən ölkəmizdə artıq dəyişilmiş təsərrüfatçılıq şərtləri, siyasi və sosial-iqtisadi vəziyyət, nəzarət obyektləri sisteminin daxili və xarici mühitindəki problemlərin olduğu şəraitdə ümumiləşdirilmiş təftişlərin və tematik yoxlamaların təşkil olunması və keçirilməsi ilə əlaqədar vacib məsələləri eyni formada tənzimləyən birtipli təlimatlara və metodik göstəricilərə təkrar baxılmasının vacib olduğu müəyyən olunmuş və belə qənaətə gəlinmişdir ki, bütün bu çətinlikləri dövlət maliyyə nəzarətinin sistemli və kompleks standartlaşdırılması yoluna qoymalıdır.

Dövlət maliyyə nəzarətinin standartları 2 tipə ayrılır:

1. ümumi standartlara
2. metodik standartlara

Audit standartlarına uyğun olaraq, onların dövlətimizin prinsiplərinə əsasən metodoloji əsasları, hazırlanma qaydaları, elementləri nəzarət tədbirləri üzrə qarşılıqlı vəzifə fəaliyyəti, məlumat axınları və s. əhəmiyyəti və mexanizmi təyin edilmişdir.

Dünya ölkələrinin maliyyə sahəsindəki təcrübələrinə əsasən, qəbul olunmuş qaydalara müvafiq olaraq, dövlət maliyyə nəzarəti sisteminin bazasının araşdırılması ilə belə nəticəyə gəlinir ki, bu formada göstərilən Respublikada mövcud olan maliyyə nəzarəti sistemi indiki vəziyyətdə əhəmiyyətli dərəcədə şərti məna kəsb edir, ancaq faktiki olaraq, bir-birindən təcrid edilmiş və öz aralarında əlaqələri çox zəif olan nəzarət orqanlarının müəyyən birliyidir.

Dövlət maliyyə nəzarətinin hazırkı çətinliklərinə səbəb olan əsas şərtlər kimi bunlar müəyyən olunmuş və onların dövlət maliyyə sisteminin inkişafına mənfi təsiri elmi cəhətdən sübut edilmişdir.

Təkmil və tam normativ hüquqi baza mövcud deyildir. Var olan baza sadəcə olaraq çoxsaylı tələbələrin məcmusudur. Dövlət Maliyyə nəzarəti sistemi kompleks və sistemli olaraq standartlaşdırılmamışdır, bu da o deməkdir ki, onun metodoloji əsasları, ümumi qaydaları mövcud deyildir. Yoxlamaların sayca çox, ancaq səmərəlilik baxımından xeyli az olması çox vaxt təsərrüfat fəaliyyətinin gedişatına mane olur. İEÖ-də sınaqdan keçirilmiş modern nəzarət texnologiyaları isitfadə edilmir.

Dövlət nəzarətçilərinin lazımi qədər etibarlı hüquqi, maddi-texniki və sosial bazası mövcud deyildir. İdarə səviyyəli nəzarətin subyektlərinin fəaliyyətinin təşkil olunması və reallaşdırılması ölkədə aparılan islahatların tələblərinə uyğun gəlmir.

Dövlət orqanlarının nəzarət fəaliyyəti ona təqdim edilən tələbləri ödəmir və səmərəli hesab olunmur, bəzi orqanlar isə var olan hesabat sisteminin öz funksiyalarını gerçəkləşdirməsi barədə fikir irəli sürmə fürsəti vermir.

Dövlət maliyyə nəzarəti orqanları sisteminin strukturunun təkmilləşdirilməsi məqsədilə aparılan tədqiqatlar bu analitik və təşkilati-texniki məsələlərin həll edilməsinin önəmini əsaslandırmağa imkan yaratmışdır.

- Dövlət maliyyə nəzarəti orqanları sisteminin dövlət idarəetmə sisteminin digər vasitələri ilə inteqrasiyası.
- Həll edilməsi üçün dövlət maliyyə nəzarəti orqanları sisteminin dairəsinin dəqiq təyin olunması və dövlət siyasətinə uyğun olaraq bu sistemin təkmilləşdirilməsinin məqsədlərini təyin etmək.

– Dövlət maliyyə nəzarətinin qarşısına qoyulmuş məqsədlərə çatmaq üçün vacib olan əsas məsələlərin təyin edilməsi.

– Hər bir struktur vahidlərinin məqsədlərinin, vəzifələrinin, funksiyalarının, hüquqlarının və məsuliyyətinin müəyyən edilməsi, onların qarşılıqlı münasibətləri sxeminin işlənib hazırlanması, bütün bunların müvafiq normativ hüquqi aktlarda sənədli şəkildə təsbit olunması.

– Eynitipli məsələlərin qruplar halında cəmləşdirilməsi, eyni zamanda onların əsasında sistemin həmin məsələləri yerinə yetirmək üzrə ixtisaslaşmış struktur vahidlərinin təkmilləşdirilməsi.

– Dövlət maliyyə sisteminin təkmilləşdirilməsi və inkişafı ilə bağlı digər məsələlərin işlənib hazırlanması və həyata keçirilməsi.

– Dövlət maliyyə nəzarəti orqanlarının fəaliyyətinə dair mühüm məsələlərin işlənib hazırlanması, strukturun monitorinqi və təkmilləşdirilməsi və s.

Axır illərdə müəssisə, idarə və təşkilatların maliyyə-təsərrüfat fəaliyyətinə çox sayda əsası olmayan müdaxilələrin qarşısını almaq, iri, orta və kiçik sahibkarlığın ölkəmizdə inkişafına əngəl törədən maneələri aradan götürmək üçün dövlət tərəfindən ciddi tədbirlər həyata keçirilir.

Azərbaycan Respublikası Maliyyə Nazirliyinin Dövlət Maliyyə Nəzarəti xidmətinin fəaliyyət istiqamətləri bunlardır:

– Azərbaycan Respublikasında dövlət maliyyə nəzarətinin həyata keçirilməsi işinə metodiki rəhbərlik edir, bu sahədə mövcud olan nöqsanları və neqativ halları yaradan səbəblərin aradan götürülməsi üçün mütəmadi tədbirlər görür;

– Dövlət zəmanəti ilə alınmış və dövlət büdcəsinin vəsaiti hesabına verilmiş kreditlərin xərclənməsi üzərində dövlət maliyyə nəzarətini həyata keçirir;

– Dövlət büdcəsinin, həmçinin məqsədli büdcə fondlarının vəsaitlərinin xərclənməsi, habelə büdcə təşkilatlarının büdcədənkənar əməliyyatlar üzrə

vəsaitlərinin əldə olunması və xərclənməsi üzərində dövlət maliyyə nəzarətini gerçəkləşdirir;

– qanunvericiliklə müəyyən olunmuş digər istiqamətlərdə fəaliyyət göstərir.

Hüquq ədəbiyyatında bir düşüncə söylənilir ki, gömrük orqanları tərəfindən vergi və rüsumların toplanması, gömrük orqanlarının hərəkət (və ya hərəkətsizliyi), gömrük ödəmələri üzərində nəzarət, aktlarından şikayət, məsuliyyətə cəlb edərkən yaranan münasibətlər kifayət qədər mürəkkəbdir və ayrı-ayrı hüquq sahələri normaları ilə qaydaya salınır. Azərbaycan Respublikası Vergi Məcəlləsi bu əlaqələrə adı çəkilən halda, başqa sözlə vergi və gömrük rüsumlarının alınması vaxtı müəyyən şəraitdə təsir göstərir. Məsələn, artıq ödənilmiş faizlərin, vergilərin və maliyyə sansksiyalarının məbləğlərinin qaytarılması, bu Məcəllənin 87-ci maddəsinə və Azərbaycan Respublikasının Gömrük Məcəlləsinin 123-cü maddəsinə əsasən, eyni formada öz həllini tapır, yəni bu məbləğlər ödəyicilərə geri qaytarılır. Vergilər haqqında bu hal baş verdikdə, gömrük orqanları vergi orqanlarının səlahiyyətlərindən istifadə edirlər. (Bağırov.D.A,2006:s.352)

Gömrük orqanlarının gömrük ödəmələrinin ödənilməsi üzərində nəzarət fəaliyyəti bu aktlarla qaydaya salınır:

– Azərbaycan Respublikası Vergi Məcəlləsi;
– beynəlxalq-hüquqi müqavilələr və respublikanın iştirakı ilə bağlanan sazişlər;
– Azərbaycan Respublikası Gömrük Məcəlləsi;
– qanun qüvvəli aktlar;
– “Gömrük tarifi haqqında” Azərbaycan Respublikasının 20 iyun 1995-ci il tarxili qanunu.

Ölkəmizdə yeni formada gömrük işinin bünövrəsi 1991-ci ildən dövlətimiz müstəqillik əldə etdikdən sonra qoyulmuşdur. Gömrük qanunvericiliyi Azərbaycan Respublikasında daxili bazarın xarici bazarla səmərəli əlaqəsini təmin etməklə xarici ticarətin dövlət tənzimləməsinin mühüm vasitəsi olan gömrük tarifinin tətbiqi və formalaşdırılması, eyni zamanda Azərbaycanın gömrük sərhədindən keçən

mallardan gömrük rüsumu tutulması qaydalarını təyin edir və nizamlayır. Modern anlamda gömrük işi dövlətin daxili və xarici siyasət fəaliyyəti ilə birbaşa əlaqəli olan mürəkkəb, kompleks münasibətlərin birləşməsidir.

Hazırki dövrdə maliyyə nəzarəti sahəsində bankların əhəmiyyətli rolu vardır. Bazar iqtisadiyyatı qanunauyğunluqları bank fəaliyyətini və bu fəaliyyətin tərkib hissəsi kimi, bank nəzarətini daha önəmli və vacib etmişdir. Bu onunla bağlıdır ki, iqtisadiyyatın və başqa sahələrin əsaslı dəyişiklikləri bank sisteminə və bank sahəsində vəzifələrə təsir göstərir.

Maliyyə nəzarətinin bu forması hər şeydən qabaq bank ssudalarından istifadənin səmərəliliyinin artırılması və ödəmə intizamının möhkəmləndirilməsinə istiqamətləndirmişdir. Odur ki, bank kreditində irəli sürülən şərtlər: əvəzli, müddətli və qaytarılmaq şərtləri, kreditləşmə prosesində bank nəzarəti üçün vacibdir. Bu nəzarət həm də, kreditin qaytarılması üçün gerçək təminatdır və vacib şərtdir.

Bank nəzarəti sistemində MB-ın həyata keçirdiyi nəzarət əsaslı yer tutur.

Mərkəzi Bankın bank nəzarəti "Banklar və bank fəaliyyəti" barədə Qanunun 50-ci maddəsinə əsasən reallaşdırılır. Odur ki, kredit təşkilatının illik maliyyə-təsərrüfat fəaliyyəti sadəcə onun seçdiyi, və ya ehtiyac olunan hallarda Mərkəzi Bankın müəyyən etdiyi auditor tərəfindən analiz edilməli, yoxlanılmalı və yoxlamanın nəticələrini Mərkəzi Banka bildirmək şərtilə, müəyyən edilmiş forma və müddətlərdə illik balans, mənfəət və zərər haqqında hesabat mətbuatda dərc olunmalıdır. (http://www.cbar.az)

Hazırkı dövrdə xarici-iqtisadi beynəlxalq ticarətin inkişafı, fəaliyyətin inkişafı, bazar münasibətlərinin inkişafı ilə bank nəzarətindən sərbəst bir nəzarət sahəsi kimi ayrılan valyuta nəzarətinə xüsusilə nəzər yetirmək lazımdır.

# NƏTİCƏ

Bazar münasibətlərinin inkişafı dövründə maliyyə - həm müəssisə, həm də dövlət səviyyəsində başlıca həlqələrdən biri kimi çıxış edir. Maliyyənin vacibliyi ona nəzarət mexanizminin əhəmiyyətliliyini daha da artırır. Maliyyə nəzarəti maliyyənin nəzarətedici funksiyasının təzahürü, və ya reallaşdırılması kimi çıxış edir və burada nəzarətin mahiyyəti və məqsədləri müəyyənləşir. Maliyyə nəzarəti idarəetmə sisteminin bir formasıdır. Maliyyə nəzarəti, sahibkar və dövlətin xarici valyuta, kredit, pul və ümumi olaraq maliyyə əməliyyatlarının norma və qanunvericiliyə uyğunluğunun səlahiyyətli orqanlar tərəfindən yoxlanmasıdır. Maliyyə nəzarəti bir yandan maliyyə idarə edilməsinin həlledici tərəfi, digər yandan maliyyə sisteminin idarə olunmasının effektliliyinin önəmli şərti kimi çıxış edir.

Dövlətin idarə olunmasında maliyyə resurslarına nəzarət mexanizmi prioritet məsələ təşkil edir. İstər makro səviyyədə, istərsə də mikro səviyyədə maliyyə resurslarının formalaşması, idarə olunması kimi, həmin resursların təyinatı üzrə sərf olunmasına nəzarət mexanizminin olması öncül məsələlərdəndir.

İndiki şəraitdə dünyada baş verən iqtisadi proseslər müxtəlif istiqamətlərdə dəyişir.Bir çox ölkələrin ölkələrin milli valyutasının xarici valyutalar qarşısında dəyərinin aşağı düşdüyü şəraitində, ölkə gəlirlərinin azaldığı bir şəraitdə maliyyə nəzarətinin rolu və əhəmiyyəti ikiqat artmaqdadır. Sərf olunmuş maliyyə vəsaitlərinin təyinatı üzrə, daha səmərəli istifadə olunması üçün müxtəlif inkişaf yolları nəzərdən keçirilir.

Maliyyə nəzarətinin təkmilləşdirilməsi ölkəmiz üçün daha aktualdır. Bu da aşağıdakı amilləri ilə bağlıdır:

- Dövlət maliyyə nəzarəti sistemi bazar münasibətlərinin formalaşması prosesi ilə paralel şəkildə inkişaf etməlidir;

- Yeni iqtisadi münasibətlərin formalaşdırılması şəraitində maliyyə qanunvericiliyi də tədricən formalaşır. Ona görə də bu zaman xarici ölkələrin təcrübələrinin öyrənilərək yerli şəraitə uyğunlaşdırılması lazım gəlir;

Respublikamızda dövlət maliyyə nəzarətini Hesablama Palatası, Maliyyə Nazirliyinin Maliyyə Nəzarəti Xidməti ,Auditorlar Palatası,İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi xidməti,Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsi və öz səlahiyyətləri hüdudlarında digər orqanlar həyata keçirirlər. Dövlət maliyyə nəzarəti vasitəsi ilə planlaşdırılmış bütün vəsaitlərin zamanında dövlət fondlarına daxil edilməsinə və bu vəsaitlərdən məqsədyönlü istifadəyə nəzarət gerçəkləşdirilir. Hər bir nəzarət orqanı öz fəaliyyətlərdə sərbəst olsalar da, son məqsədi eynilik təşkil edir. Belə ki, dövlət maliyyə nəzarətini həyata keçirən orqanlar respublikamızda maliyyə dayanıqlığının artırılmasına, maliyyə resurslarından təyinatı üzrə istifadə olunmasına nəzarəti reallaşdırırlar.

Azərbaycan Respublikası Hesablama Palatası, "Hesablama Palatası haqqında" 1999-cu il 2 iyul tarixli Qanununa uyğun olaraq fəaliyyət göstərir. Onun başlıca funksiyası dövlət büdcəsinin təsdiq olunması və onun icrasına nəzarətin gerçəkləşdirilməsindən ibarətdir.

Maliyyə nəzarətinin gerçəkləşdirilməsi yönündə Maliyyə Nazirliyi çox vacib rola malikdir. Belə ki, Maliyyə Nazirliyi tərəfindən maliyyə siyasəti işlənib hazırlanır, həmçinin onun təmin olunmasına nəzarət edilir. MN-nin bütün struktur sahələri bu və ya digər dərəcədə maliyyə münasibətlərinə: dövlət büdcəsinin təşkilii prosesinə, büdcə vəsaitinin daxil olması və xərclənməsinə, büdcədənkənar fondların vəsaitlərinin hərəkəti istiqamətinə, valyuta əməliyyatlarının və dövlət investisiyalarının istifadəsinə nəzarəti təmin edir.Maliyyə Nazirliyi büdcə vəsaitinin qeyri-qanuni xərclənməsini,və ya vəsaitin təyinatı üzrə istifadə olunmadığını sübut etdikdə, dövlət büdcəsindən maliyyələşdirmə məhdudlaşdırıla bilər, cərimə tətbiq olunmaqla vəsait geri qaytarıla bilər.

Respublikamızın qanunvericiliyinə uyğun olaraq vergi məsələləri üzrə maliyyə nəzarəti Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidməti və onun yerlərdəki orqanları tərəfindən gerçəkləşdirilir. Dövlət gəlirləri

daxilində vergilərin xüsusi çəkisinin çoxalması vergi orqanlarının nəzarət işində məsuliyyətini daha çox artırmışdır. Vergi orqanları vasitəsi ilə vergilərin dəqiq hesablanmasına, onların tam və zamanında ödənilməsinə, vergi qanunvericiliyinə düzgün riayət olunmasına və digər məsələlərə nəzarət edilir.

Dünya praktikasından də məlum olmuşdur ki, ölkədə işgüzar fəallıq çoxaldıqca, vergidən yayınma halları və vergi hüquqpozmaları da artır. Qanunvericiliyin və vergi inzibatçılığının mütəmadi təkmilləşdirilməsinə baxmayaraq, vergi ödəyiciləri tərəfindən yayınma halları və formaları daim dəyişir. Bu isə öz növbəsində daha vacib nəzarət mexanizmlərinin tətbiqi vacibliyini yaradır.

Ölkəmizdə maliyyə nəzarətinin tədqiqi göstərir ki, maliyyə nəzarəti sisteminin hazırki dövrün tələblərinə uyğun təşkili və təkmilləşdirilməsi olduqca önəmlidir. Bu məqsədlə ilkin olaraq maliyyə nəzarətinin müasir formalarının təşkili və fəaliyyətlərinin təmin olunması, nəzarət sisteminin koordinasiyası, onun təsirinin artırılması təmin olunmalıdır.

Eyni zamanda respublikamızda maliyyə nəzarətinin bazar iqtisadiyyatı şəraitinə uyğunlaşdırılması, maliyyə nəzarətinin əsas məqsədinin dövlət büdcəsi gəlirlərinin formalaşmasına və xərclərin səmərəliliyinin artırılmasına, maliyyə nəzarətinin korrupsiya alətinə çevirən maneələrdən azad olunmasına, sahibkarlıq fəaliyyətinin inkişafına istiqamətlənməsinə də xüsusi önəm verilməlidir.

Bu gün ölkəmizdə sosial-iqtisadi dəyişiklərin baş verdiyi,struktur dəyişiklərinin aparıldığı bir dövrdə maliyyə nəzarəti sisteminin də müasir şəraitə uyğunlunun təmin edilməsi vacibliyi yaranır.Bazar münasibətlərinin inkişafına paralel şəkildə maliyyə nəzarəti sisteminin də təkmilləşdirilməsi vacibdir.Bazar iqtisadiyyatının tənzimlənməsində dövlətin rolunun çoxaldıması üçün maliyyə nəzarətinin təkmilləşdirilməsi üzrə aşağıdakı istiqamətlər vacib rol oynaya bilər:

- Maliyyə nəzarəti sistemində dəyişiklərin bazar iqtisadiyyatının inkişafının tələblərinə uyğun həyata keçirilməsi;
- İnkişaf etmiş ölkələrin maliyyə nəzarəti sistemi praktikasının öyrənilməsi,dünya ölkələrinin nəzarət sistemlərinin araşdılması,

öyrənilmiş sistemlərin yerli şəraitə uyğunlaşdırılaraq təkmilləşdirilməsi imkanlarının müəyyənləşdirilməsi;

- Ölkəmizdə maliyyə nəzarətinin elmi-metodoloji bazasının formalaşması istiqamətində ciddi addımların atılması;
- Elmi, informasiya kommunikasiya texnologiyaları yeniliklərinin uğurlarından maliyyə nəzarəti orqanlarının fəaliyyətində istifadə olunması;
- Fəaliyyətləri eynilik təşkil edən nəzarət orqanlarının birləşdirilməsi, onların strukturlarının təkmilləşdirilməsi istiqamətlərinin müəyyən olunması.

## İSTİFADƏ EDİIMİŞ ƏDƏBİYYAT SİYAHISI


1. "Azərbaycan Respublikasının 2020-ci il dövlət büdcəsi haqqında" Azərbaycan Respublikası Qanununda dəyişiklik edilməsi barədə" Hesablama Palatasının rəyi, 2021
2. Azərbaycan Respublikası Maliyyə Nazirliyi, w.w.w.maliyye.gov.az/ büdcəsinin formalaşmasında onun rolu. AMEA-mn Xəbərləri. Humanitar və içtimai elmlər ser. (iqtisadiyyat), B., Elm. N»l, 2003.S. 12-19
3. Büdcə sistemi haqqında Azərbaycan Respublikasının Qanunu- Bakı şəhəri, 2 iyul 2002-ci il № 358-IIQ
4. Daxili Audit haqqında Azərbaycan Respublikasının Qanunu-Bakı şəhəri, 22 may 2007-ci il № 332-IIIQ
5. Hesablama Palatası haqqında Azərbaycan Respublikasının Qanunu-Bakı şəhəri, 29 iyun 2018-ci il.
6. Hesablama Palatasının illik fəaliyyəti haqqında hesabatın hazırlanması, baxılması və təsdiq olunması QAYDALARI- Azərbaycan Respublikası Hesablama Palatası Kollegiyasının 2009-cu il 17 aprel tarixli Q-30 nömrəli Qərarı ilə təsdiq edilmişdir
7. Abbasov.İ.M (2013) «Audit» dərslik. - Bakı– 544 səh.
8. Abbasov.İ.M (2007)-"Audit"dərslik- Bakı.530 səh
9. Bağırov.D.A,Həsənli.M.X(2011)-Maliyyə. Bakı "Azərbaycan Dövlət İqtisad Universiteti" Nəşriyyatı-384 səh
10. Bağırov.D.A(2006) «Vergi nəzarəti». Bakı- 412 səh.
11. Bədəlov.Ş.Ş, Məhərrəmov.R.B, Qurbanov.F.Ə(2003) «Büdcə sistemi dərslik». Bakı "Nurlan"-285 səh
12. Əfəndi.E.V(2007).İqtisadi artım problemi və onun modelləşdirilməsinin nəzəri əsaslar "Milli iqtisadiyyatın problemləri (məqalələr toplusu) -2-ci buraxılış" Milli Elmlər Akademiyası, Bakı, Avqust 2007.
13. Xankişiyev.B.A(2002)-Maliyyə Nəzarəti-Bakı. "Turan " nəşriyyatı-94 səh.

14.Kəlbiyev.Y.A (2010)-Vergilər və Vergitutma. Bakı "Azərbaycan Dövlət İqtisad Universiteti" Nəşriyyatı-səh 512.
15.Namazova.C.B(2015) -Praktiki audit-.Bakı "Azərnəşr"-286 səh
16.Novruzov.N.A,İbrahimov.E.Ə(2012). Büdcə sistemi. Bakı, "Adiloğlu" Nəşriyyatı, 472 səh Novruzov .V.T(2011)- Audit. Bakı ."Azərnəşr" 604-səh.
17.Zeynalov.V.Z (2010)-Maliyyə-dərs vəsaiti.Bakı "İqtisad Universiteti" nəşriyyatı-361 səh.

## Rus dilində

18.Благодатин.А, Лозовский. Л, Райзберг. Б (2003). Финансовый словарь. М.: ИНФРА-М-378 с
19.Брайчева. Т.В (2001). Государственные финансы. СПб: Питер-288 Родионова. В.М (2002). Финансовый контроль: Учебник – М.: ИД ФБК-ПРЕСС- 320 с.
20.Грачева. Е.Ш, Толстопятенко. Г.П, Рыжково. Е.А (2004). «Финансовый контроль» Учеб.пособие. М. 272 с.
21.Шохин. С.О, Боронина. Л.И (1997) «Бюджетно-финансовый контроль и аудит». Научно-методическое пособиеМ.240 с.

## İngilis dilində

22.BPP Learning Media - ACCA F8 "Audit and Assurance" (The Association of Chartered Certified Accountants)
23.Devid Aleksander, Anne Britton (2010)-Maliyyə Hesabatının Beynəlxalq Standartları.Rus dilindən tərcümə.Bakı:" İqtisad Universiteti" Nəşriyyatı.

## İnternet resursları

24.www.audit.gov.az – Azərbaycan Respublikasının Auditorlar Palatasının saytı
25.http://sai.gov.az – Azərbaycan Respublikası Hesablama Palatasının saytı

26. http://www.maliyye.gov.az – Azərbaycan Respublikası Maliyyə Nazirliyinin saytı
27. www.stat.gov.az - Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsinin saytı
28. www.cbar.az –Azərbaycan Respublikası Mərkəzi Bankının saytı
29. economy.gov.az-Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyinin saytı
30. taxes.gov.az-Azərbaycan Respublikasının Iqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidmətinin saytı

## Cədvəllərin siyahısı

**Cədvəl 1** : Neft sahələrində yaradılmış əlavə dəyər...............................................37

**Cədvəl 2:** Hesabat dövründə dövlət büdcəsinin gəlir və xərcləri, mln. Manatla....37

## Sxemlərin siyahısı

**Sxem 1:** Azərbaycan Respublikasının maliyyə sistemi ......................................... 13

**Sxem 2:** Azərbaycan Respublikası Auditorlar Palatasının sturukturu....................49

**Sxem 3:** Vergi yoxlamalarının strukturu………………………………………54

## Diaqramların siyahısı

**Diaqram 1:** 2019-2021-ci illər üzrə dövlət büdcəsinin gəlirləri ilə bağlı məlumat..........................................................................................................42

**Diaqram 2:** Audit formasında aparılmış nəzarət tədbirlərinin illər üzrə göstəriciləri...................................................................................................48